

Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan biznes və investisiya üçün cəlbedici ölkədir



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
28 yanvar 2025-ci il, çərşənbə axşamı
№ 015 (6843)
Qiyməti 60 qəpik

# Ali Baş Komandan hərbçilərin maaşlarını artırdı



Bax səh. 2

## “Qız qalası” su anbarından magistral suvarma kanalının tikintisi gündəlikdədir

Bax səh. 3



## “Yaşıl enerji”də rekord göstərici

2024-cü il Azərbaycanın “yaşıl enerji” üzrə planları gözlənildiyindən də uğurla davam edib, bütün növ bərpaolunan enerji mənbələrində əhəmiyyətli artımlar baş verib. Ötən il ərzində “yaşıl enerji” mənbələri üzrə elektrik enerjisi istehsalı 2023-cü ilə nisbətən 1728,7 milyon kVt·st artaraq 3850,9 milyon kVt·st təşkil edib. Bərpaolunan enerji mənbələri üzrə SES-lərdə istehsal 3 milyon kVt·st, digər mənbələr üzrə isə 839,9 milyon kVt·st təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında 51,1 milyon kVt·st, Günəş elektrik stansiyalarında 556,3 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 232,5 milyon kVt·st elektrik enerjisi istehsal edilib.

Bu rəqəmlər bir daha təsdiq edir ki, artıq Azərbaycanda “yaşıl enerji” strategiyası uğurlu başlanğıcla irəliləyir və bərpa olunan enerji növlərinin hər birində artım müşahidə edilir. Bu isə hökumətin 2030-cu ilə qədər elektrik enerjisində bərpa...

Bax səh. 3

## Mina terroru 2024-cü ildə də davam edib

Bax səh. 4

## “Qara qutu”ların materialları yaxın zamanda açıqlanacaq

Bax səh. 5

## Miqrantlara qarşı mübarizə güclənir...

Bax səh. 7

## Yelisey Sarayı xalqların azadlıq hüququnu tanımalıdır

Bax səh. 5



## İrqçi siyasətin davamı



Bax səh. 4



# NATO yenilənir?

Bax səh. 7

# Prezident İlham Əliyev İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü ilə görüşüb



Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 27-də İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü Conatan Misneri qəbul edib. Dövlətimizin başçısı Azərbaycanda tarixən olduğu kimi bu gün də müxtəlif dinlərin və konfessiyaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşadıqlarını vurğulayıb. Qeyd edib ki, bu, xalqımızın həyat tərzi olmaqla yanaşı, eyni zamanda, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan öz təcrübəsindən çıxış edərək dünya səviyyəsində də dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynayır, bundan sonra da öz töhfəsini verməkdə davam edəcək.

Qonaqlar Azərbaycanda tarixən yəhudi icmasının nümayəndələrinin dinc şəraitdə yaşamaları üçün yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər. Onlar ölkəmizə səfər çərçivəsində, həmçinin Quba rayonuna da gedəcəklərini və oradakı yəhudi icmasının yaşayış şəraiti ilə yerində tanış olacaqlarını diqqətə çatdırıblar. Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına səfər etdiklərini vurğulayan qonaqlar həmin ərazilərimizdə qısa müddətdə həyata keçirilən bərpa-quruculuq işlərinin onlara böyük təəssüratlar bağışladığını qeyd ediblər. Bu səfər çərçivəsində dünyanın müxtəlif ölkələrindən çoxsaylı yəhudi iş adamlarının ölkəmizə gəldiyini deyən qonaqlar Azərbaycanın biznes və investisiya üçün cəlbedici ölkə olduğunu vurğulayaraq, bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Görüşdə Azərbaycan-İsrail və Azərbaycan-ABŞ əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.



# Növbəti maaş artımları

## Bəzi dövlət orqanlarının hərbi və dövlət qulluqçusu olmayan mülki işçilərinin maaşlarının artırılması ilə bağlı fərmanlar imzalanıb

Prezident İlham Əliyevin yanvarın 27-də imzaladığı fərmanlara əsasən, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin, Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılıb. Dövlət başçısının imzaladığı digər fərmanlarla həmçinin, Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının,

Daxili İşlər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları da 10 faiz artırılıb.

Eyni zamanda, Prezidentin müvafiq fərmanına əsasən, bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşları da orta hesabla 10 faiz artırılıb.

# Dövlət başçısı Qvineya və Sloveniyanın yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

Prezident İlham Əliyev yanvarın 27-də Qvineya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Umar Kandenin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Dövlətimizin başçısı siyasi və iqtisadi əlaqələrimizin uğurla inkişaf edəcəyinə ümidvarlığını bildirərək, ölkələrimizin bir sıra beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında fəal və uğurlu əməkdaşlıq etdiklərini vurğulayıb. Bu çərçivədə qarşılıqlı dəstəyə əsaslanan əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib, əməkdaşlığımızın cəlbedici sahələrinin müəyyənləşdirilməsinin də zəruriliyini qeyd edib.

Ölkəmizdə Afrikadan çoxsaylı tələbələrin təhsil aldığını deyən dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən olan tələbələr üçün təqaüd proqramları təqdim etdiyini, qvineyalı tələbələrin də bundan yararlana biləcəklərini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın özünün ASAN və DOST xidmət təcrübəsini bir sıra ölkələrlə bölüşdüyünü qeyd edərək, bu sahədə Qvineya ilə də əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb.

Səfir Umar Kande Qvineya Prezidenti və ölkəsi adından təyyarə qəzası ilə bağlı Azərbaycan Prezidentinə və xalqına başsağlığını çatdırıb. Umar Kande ölkəsinin Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın həyata keçirilməsində maraqlı olduğunu və ölkəmizlə strateji tərəfdaşlığın





qurulacağına ümidvar olduqlarını bildirib. O qeyd edib ki, bu isə öz növbəsində xüsusilə də BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və Qoşulmama Hərəkatında müştərək təşəbbüslərin irəli sürülməsinə xidmət edəcək. Beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrimizdən məmnunluğunu ifadə edən səfir ölkələrimiz arasında təhsil, mədəniyyət, elektron hökumət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Söhbət zamanı ölkəmizin aidiyyəti iqtisadi qurumları ilə birbaşa əlaqələrin yaradılmasının, iqtisadi əməkdaşlıq perspektivlərinin araşdırılmasının və onun inkişaf etdirilməsi üçün iqtisadi sahə üzrə nümayəndə heyətlərinin mübadiləsinin vacibliyi qeyd olunub.

***

Azərbaycan Prezidenti yanvarın 27-də Sloveniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qorazd Rençelin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Səfir Qorazd Rençel, ilk növbədə, COP29-un uğurla keçirilməsi və əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırıb.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bu konfransın hazırlıq işlərinə az müddət qalmasına baxmayaraq, Azərbaycan tərəfindən həmin tədbirin uğurla təşkil olunduğunu vurğulayıb, COP29-un ölkəmizdə indiyədək keçirilən ən böyük beynəlxalq tədbir olduğunu məmnunluqla qeyd edib. Sloveniyanın bu tədbirdə fəal iştirakını yüksək qiymətləndirən dövlətimizin başçısı COP29-da təmsil olunan xeyli sayda ölkələr arasında konsensusun əldə edilməsinin önəminə toxunub, tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyinin irəli aparılması üçün səmərəli nəticələrin olduğunu vurğulayıb.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin yaxşı tarixə malik olduğunu deyərək, iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərini xatırladı və bu səfərlər zamanı müxtəlif istiqamətlər üzrə məhsuldar müzakirələrin aparıldığını məmnunluqla qeyd edib.

Görüşdə Azərbaycanla Sloveniya arasında siyasi dialoqun dinamik surətdə inkişaf edəcəyinə ümidvarlıq ifadə olunub, yaxın vaxtlarda iki ölkənin xarici işlər nazirləri arasında siyasi məsləhətləşmələrin və iqtisadi əməkdaşlıq məsələləri üzrə işçi qrupunun toplantısının keçiriləcəyi bildirilib, yüksəksəviyyəli qarşılıqlı səfərlərin təşkil olunacağı qeyd edilib.

Səfir Azərbaycanın Cənubi Qafqaz regionunda, həmçinin Trans-Xəzər nəqliyyat dəhlizində mühüm rola malik ölkə olduğunu vurğulayıb.

Söhbət zamanı Azərbaycanla Sloveniya arasında enerji sahəsində əməkdaşlığın inkişafına toxunulub, Azərbaycan qazının Sloveniya bazarına çatdırılması əlaqələrimizin inkişafında mühüm addım kimi dəyərləndirilib. Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# İqtisadi Şuranın iclasında 2025-ci il üzrə Fəaliyyət Planı müzakirə olunub

Dünən İqtisadi Şuranın iclası keçirilib. İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi geniş müsahibəsindən irəli gələn tapşırıqlar, 2024-cü ilin sosial-iqtisadi inkişaf göstəriciləri və İqtisadi Şuranın 2025-ci il üzrə Fəaliyyət Planı, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda Azad İqtisadi Zonanın (AİZ) yaradılması ilə bağlı məsələlər, ölkəmizin beynəlxalq maliyyə institutları və fondları ilə əməkdaşlığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2024-cü il üzrə Fəaliyyət Hesabatı və 2025-ci il üçün Fəaliyyət Planı və digər cari məsələlər ətraflı müzakirə olunub.





Gündəlikdə olan məsələlər üzrə iqtisadiyyat naziri Mikayıl Cabbarovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib. İclasda iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov da Naxçıvan Muxtar Respublikasında AİZ yaradılması ilə bağlı çıxışlar edib.

Təqdim olunan məsələlərə dair İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb. İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.



# İlham Əliyev Aleksandr Lukaşenkonu təbrik edib

Prezident İlham Əliyev yanvarın 27-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib. Dövlətimizin başçısı Aleksandr Lukaşenkonu Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. Prezident Aleksandr Lukaşenko göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Telefon danışığı əsnasında dövlət başçıları iki ölkə arasında dostluq və tərəfdaşlıq əlaqələrinin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliklərini ifadə edərək, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

# Çöllərə su gələcək...

## “Qız qalası” su anbarından magistral suvarma kanalının tikintisi gündəlikdədir

Qalib Azərbaycanın postmüharibə mərhələsində uğurla reallaşdırdığı “Böyük Qayıdış” proqramı bir sıra əlaqəli sahələri əhatə edir. Bəhs olunan proqrama əsasən, həm işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələri bərpa edilir, müasir standartlar səviyyəsində yeni şəhər və kəndlər salınır, həm də genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. İndiyədək burada dövlət büdcəsindən ayrılan böyük həcmlərdə vəsaitlər hesabına yaradılan müasir infrastruktur otuz il ərzində üzləşdikləri ağır məhrumiyyətlərdən sonra doğma yurd yerlərinə qayıdan insanların istifadəsinə verilib. Həmçinin perspektivdə yeni layihələrin icrası da nəzərdə tutulur.

### 252 km uzunluğunda yeni suvarma şəbəkəsi

İşğaldan azad edilmiş ərazilərdə reallaşdırılacaq mühüm infrastruktur layihələrindən biri də Araz çayı üzərində yaradılan “Qız Qalası” su anbarından magistral xəttin çəkilməsini əhatə edir. Artıq Cəbrayıl rayonundakı su anbarından 52 km uzunluğunda və 50 kubmetr/san ötürmə qabiliyyətinə malik magistral suvarma kanalınının tikintisi üçün hazırlıqlara başlanılıb.



Bu barədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Tikilməkdə Olan Obyektlərin Müdiriyyətindən məlumat verilib. Layihənin icrası Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilmiş ərazilərində, eləcə də Mil-Muğan zonasında etibarlı suvarma xidmətlərinin göstərilməsinə imkan verəcək. Belə ki, 252 km uzunluğunda suvarma boru kəmərləri şəbəkəsinin çəkilməsi ilə su ehtiyatlarının səmərəli idarə edilməsi mümkün olacaq. Burada həm iqlimə davamlılıq, həm də su ehtiyatlarının smart qaydada idarə edilməsi əsas götürülüb. Yaradılacaq yeni şəbəkə sayəsində susuz çöllərə su gələcək.

Layihənin xərclərinin bir hissəsini İslam İnkişaf Bankı ödəyəcək. Bank bu məqsədlə 96,48 milyon ABŞ dolları məbləğində Hissəli Satış maliyyələşdirilməsi təmin edəcək.

### İşğal səbəbindən inşası onilliklər ərzində ləngiyən layihə

Araz çayı dörd ölkə arasında yerləşir və hər zaman iqtisadi, mədəni, tarixi cəhətdən önəm daşıyıb. Çay üzərində, eyni zamanda, zaman-zaman müxtəlif iqtisadi infrastrukturlar yaradılıb. Ətrafda yaşayan insanlar çayın potensialından həmişə böyük dərəcədə faydalanıblar. Paralel şəkildə, ölkələr Araz çayının suyundan istifadə etmək üçün hər zaman əməkdaşlıq əlaqələri qurublar. Məlumdur ki, çayın üstündə 12 kilometr uzunluğa malik və eyni zamanda, sellərin qarşısını alan bəndin imkanlarından geniş istifadə olunub.

Ötən ilin may ayında əlamətdar hadisə baş verdi - Araz çayı üzərində Azərbaycanın və İranın birgə əməkdaşlığı ilə inşa olunan “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları istifadəyə verildi. Bunlar elektrik enerjisi istehsalı və suvarma məqsədləri üçün böyük infrastruktur obyektidir.

Bəhs olunan hidroqovşaqların layihələri keçmiş Sovet İttifaqı ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanan razılaşma əsasında hazırlanıb. Hidroqovşaqların layihələri ötən əsrin doxsanıncı illərinin əvvəllərində yenidən işlənib və ona bir sıra əlavələr edilib. Bununla belə, infrastruktur obyektlərinin inşası Ermənistanın Azərbaycana qarşı apardığı və təxminən otuz il davam edən işğalçılıq siyasəti nəticəsində ləngiyib. Hidroqovşaqların tikintisi Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə tikinti işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.

Ancaq işğal faktına baxmayaraq, Azərbaycan hidroqovşaqların tikintisi ilə bağlı siyasi iradədən heç vaxt geri çəkilməyib. Prezident İlham Əliyev 11 iyul 2016 tarixində “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu təsdiqləyib. Xatırladaq ki, həmin Saziş 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanıb. 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində Azərbaycan qazandığı parlaq Qələbə sayəsində ərazi bütövlüyünün hərbi-siyasi yolla bərpa edilməsinə nail oldu, o cümlədən işğal illərində Ermənistanın nəzarətində qalmış İranla dövlət sərhədlərinə çıxdı. Bundan sonra Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismara qəbulu ilə əlaqədar bəzi məsələlər barədə Sərəncama əsasən, 2021-ci ildə “AzərEnerji” ASC Azərbaycan Respublikası tərəfindən sifarişçi kimi müəyyən edilib.



Hər iki layihə üzrə böyük iş həcmi yerinə yetirilib və mürəkkəb texniki məsələlər uğurla həllini tapıb. O cümlədən “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları və su elektrik stansiyaları layihəsi üzrə 2016-cı ildə imzalanmış müvafiq Hökumətlərarası Sazişə əsasən yaradılmış birgə Texniki Komissiya layihələrin icrası prosesindən irəli gələn məsələlərin müzakirəsi, razılaşdırılması və həllinə davamlı töhfələr verib.

### İki qonşu ölkənin mənafeyi naminə...

“Xudafərin” və “Qız Qalası” layihələri hər iki ölkənin mənafeyi naminə inşa olunub. Bundan həm İran, həm də Azərbaycan böyük iqtisadi dvidendlər qazanacaqlar. İnfrastruktur obyektlərinin texniki parametrləri kifayət qədər genişdir. Su tutumu 1,6 milyard kubmetr olan “Xudafərin” və 56,75 milyon kubmetr su tutumuna malik “Qız Qalası” hidroqovşaqları, həmçinin hər bir tərəf üçün ümumi qoyuluş gücü 140 MVt olan “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyaları paritet əsasda ölkələrimizin maraqlarına xidmət etməklə Azərbaycan-İran təcrübəsində transsərhəd sulardan istifadənin örnəkləri olacaq. Enerji güclərinin də bərabər bölünməsi hər iki ölkəyə əlavə fayda verir.

Layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması, illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, 80 milyon kubmetr qaza qənaət imkanı yaradıb.

İnfrastruktur obyektlərinin istifadəyə verilməsi mərasimində bildirildiyi kimi, bu, su diplomatiyası sahəsində bənzərsiz bir layihədir. Bu layihə, əslində, Azərbaycan və İrandan əlavə, digər qonşu ölkələrlə də su sahəsində əməkdaşlığığı genişləndirməyə imkan verəcək. Təbii ki, Araz çayı boyunca yerləşən ölkələr sudan və bundan əldə olunan enerjidən istifadə sahəsində əməkdaşlığı daha da artırmalıdırlar. Yaxşı haldır ki, artıq bu istiqamətdə də memorandumlar imzalanır. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında layihənin icrasını yüksək dəyərləndirib. “Bu gün biz əyani şəkildə gördük ki, bu layihə doğrudan da böyük bilik, səriştə və təcrübə tələb edirdi” deyən dövlətimizin başçısı vurğulayıb: “Bu gün çox əlamətdar bir gündür. “Qız Qalası” hidroqovşağının açılışı və “Xudafərin” hidroqovşağının istismara verilməsi, hesab edirəm ki, tarixi hadisədir”.

*Mübariz FEYİZLİ*

# “Yaşıl enerji”də rekord göstərici

## 2024-cü ildə bərpaolunan enerji istehsalı 2 dəfəyə yaxın artaraq 3,9 milyard kVt·st təşkil edib

2024-cü il Azərbaycanın “yaşıl enerji” üzrə planları gözlənildiyindən də uğurla davam edib, bütün növ bərpaolunan enerji mənbələrində əhəmiyyətli artımlar baş verib. Ötən il ərzində “yaşıl enerji” mənbələri üzrə elektrik enerjisi istehsalı 2023-cü ilə nisbətən 1728,7 milyon kVt·st artaraq 3850,9 milyon kVt·st təşkil edib. Bərpaolunan enerji mənbələri üzrə SES-lərdə istehsal 3 milyon kVt·st, digər mənbələr üzrə isə 839,9 milyon kVt·st təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında 51,1 milyon kVt·st, Günəş elektrik stansiyalarında 556,3 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 232,5 milyon kVt·st elektrik enerjisi istehsal edilib.

Bu rəqəmlər bir daha təsdiq edir ki, artıq Azərbaycanda “yaşıl enerji” strategiyası uğurlu başlanğıcla irəliləyir və bərpa olunan enerji növlərinin hər birində artım müşahidə edilir. Bu isə hökumətin 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunanenerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və “yaşıl enerji” sahəsində lider olmaq üçün mövcud enerji siyasətinin uğurla icrasından xəbər verir.

### Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji” istehsalı yüksəlir





Yaxın 5-6 ildə “yaşıl enerji” gücünü 2 dəfə artırmaqla Azərbaycan həmin hədəf göstəricisini adlayacaq. Qiymətləndirmələrə əsasən, Azərbaycanda “yaşıl enerji” mənbələrinin potensialı quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır.Təkcə, Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və Günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır.

Yeri gəlmişkən, ötən il Qarabağ və Şərqi Zəngəzurdakı enerji mənbələrində yüksək enerji səmərəliliyi qeydə alınıb, ölkənin ümumi enerji sisteminə inteqrasiya prosesi hədsiz dərəcədə yaxşılaşıb. Kəlbəcər rayonu və eyni zamanda, işğaldan azad edilən ərazilərdə ən böyük su elektrik stansiyası hesab edilən 22,5 meqavatlıq “Yuxarı Vəng”, habelə 4,3 meqavatlıq “Zar”, Laçın rayonunda 2,8 meqavatlıq “Zabux”, 4,6 meqavatlıq “Qarıqışlaq”, Zəngilan rayonunda isə hər birinin gücü 10,5 meqavat olmaqla “Şayıflı”, “Zəngilan” və “Sarıqışlaq” su elektrik stansiyaları istismara verilib. Ümumilikdə, bu bölgədə enerji təsərrüfatlarının bərpasına başlanmasından sonra 32 su elektrik stansiyası istifadəyə verilib.

Ötən il bu bölgədə fəaliyyət göstərən 32 su elektrik stansiyasında (SES) 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz “yaşıl enerji” istehsal olunub. Həmin enerjinin üçdə biri, təxminən 200 milyon kilovat-saatı işğaldan azad edilən ərazilərin özünün enerji tələbatını ödəyib, qalan üçdə iki hissəsi isə respublikanın enerji sisteminə ötürülərək digər bölgələrin tələbatına yönləndirilib. Nəticədə 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

Qarabağ və Şərqi Zəngəzurda 2025-ci ildə 11 su elektrik stansiyasının açılışı da planlaşdırılır ki, nəticədə əlavə olaraq enerji istehsalı potensialı dövriyyəyə cəlb olunacaq.

### Xarici investorların cəlb edilməsi üçün münbit mühit yaradılıb



Azərbaycan hökuməti “yaşıl enerji” sektorunda islahatları 2 istiqamətdə aparır. Biirincisi, yerli “yaşıl güclərin” istehsalı və emalına xarici investorların cəlb edilməsidir ki, bunun əsası çox məharətlə qoyulub. Son 2 ildə Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power”, Böyük Britaniyanın “bp”, Avstraliyanın “Fortescue Future Industries”, Yaponiyanın “TEPSCO”, İtaliyanın “Maire Tecnimont”, Çinin “China Gezhouba Group Overseas Investment”, Fransanın “Total Energies” və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalayıb. Ümumilikdə, Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə “yaşıl enerji” sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb. Bundan başqa, Azərbaycan Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və Günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. Ötən ay Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” şirkəti ilə maliyyə tutumu 1 milyard dollar olan müqavilələrin imzalanması isə “yaşıl enerji” hərəkatında yeni dalğanın başlanğıcı sayıla bilər.

Xarici investorların bu sahəyə marağının daha da artırılmasını təmin etmək məqsədilə ölkəmizdə qüvvəyə minən “yaşıl vergi” güzəştləri isə sərmayə imkanlarını daha da artıracaq. Bu vergi stimullarının tətbiqi sayəsində qarşıdakı dövrdə “yaşıl enerji” strategiyası çərçivəsində ekoloji sahədə fəaliyyət göstərən, ətraf mühitin sağlamlaşdırılmasına töhfə verən biznes subyektlərinin, eləcə də bərpaolunan enerji mənbələrinin istehsalında fəal rol oynayan xarici sərmayəçilərin bu tipli layihələrə marağının artırılmasına və investisiyaların stimullaşmasına səbəb olacaq. Məsələn, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti qarşıdakı illərdə ölkəmizin yaşıl güclərinə 5 milyard dollara yaxın investisiya yatırmaq niyyətini bəyan edib.

“Yaşıl enerji” siyasətinin ikinci istiqaməti isə resursların ixracının şaxələndirilməsədir. Bu istiqamətdə də fundamental hüquqi baza yaradılıb, iqtisadi infrastrukturlar möhkəmləndirilir. “Xəzər-Qara dəniz-Avropa” dəhlizinin yaradılması ilə artıq Azərbaycanın “yaşıl ixracatçı”ya çevrilmək statusu öz həlini tapıb.

*E.CƏFƏRLİ*

# İrqçi siyasətin davamı

## Ermənistanın Xarici Kəşfiyyat Xidmətinin illik hesabatında Qərbi Azərbaycan mövzusunu ölkəsi üçün hərbi-siyasi risk kateqoriyasına aid etməsinin heç bir məntiqi izahı yoxdur

Son vaxtlarda Ermənistan tərəfi Qərbi Azərbaycan icması məsələsi ilə bağlı ard-arda bəyanatlar verir. Ancaq müxtəlif səviyyələrdə səsləndirilən bu bəyanatların heç də xoş məramа əsaslanmadığı açıq-aydın görünür. Onların tonu o qənaətə gəlməyə əsas verir ki, Ermənistan İkinci Qaabağ müharibəsindən əvvəlki dövrün - işğalçılıq siyasəti apardığı illərin ritorikasından əl çəkməyib. Son olaraq Ermənistanın Xarici Kəşfiyyat Xidməti bəhs olunan mövzuda özünün qərəzli mövqeyini ortaya qoyub. Qurum 2025-ci il yanvarın 23-də dərc etdiyi illik hesabatında Qərbi Azərbaycan mövzusunu ölkəsi üçün hərbi-siyasi risk kateqoriyasına aid edib.

Ermənistanın Xarici Kəşfiyyat Xidmətinin belə bir iddiadan çıxış etməsinin məntiqi başa düşülmür. Təsadüfi deyildir ki, Qərbi Azərbaycan İcması bəhs olunan hesabatla bağlı yaydığı bəyanatında Ermənistan hökumətinin irqçi siyasətini sərt şəkildə qınayıb. “Etnik təmizləməyə məruz qalmış Qərbi azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə təhlükəsiz şəraitdə və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq arzularını təhlükəsizlik riski kimi təqdim etmək bu haqq işini təhrif etməyə xidmət göstərir və Ermənistanın multietnikliyi özünə təhdid kimi gördüyünü sübuta yetirir”, - deyə QAİ-nin bəyanatında vurğulanır.

### Azərbaycanlılara qarşı xüsusi qəddarlıqla həyata keçirilən etnik təmizləmə siyasəti

Qərbi Azərbaycan İcmasının bəyanatında çox doğru olaraq vurğulanıb ki, Ermənistanın bu yanaşması onun onilliklərdən bəri yürütdüyü irqçi siyasətinin davam etdiyini göstərir. Hər kəsə bəllidir ki, etnik təmizləmə və kütləvi qırğın siyasəti məhz Ermənistana və ermənilərə xas xüsusiyyətdir. Ermənilərin son iki yüz il ərzində kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz torpaqlarında sıxışdırılması tarixi faktdır. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib, 2000-dən çox toponimin adları dəyişdirilib.

Bu gün mətbuatda, ictimai müzakirələrdə təxminən 300 min soydaşımızın tarixi yurd yerlərinə - Qərbi Azərbaycana qayıdış hüququndan bəhs olunur. Ancaq bütövlükdə bəhs olunan coğrafiyadan qovulmuş və bu gün Azərbaycanın müxtəlif bölgələrində yaşayanların, onların nəvələrinin, nəticələrinin sayı 300 mindən bir neçə dəfə çoxdur. Həmin insanlar XX əsrdə böyük fəsadlara gətirib çıxaran amansız deportasiyalar nəticəsində öz yurd-yuvalarından çıxarılıblar. Onlar 1918, 1920-1921, 1948-1953 və 1987-1991-ci illərdə olmaqla doğma ev-eşiklərini tərk etmək məcburiyyətində qalıblar. O cümlədən 1920-ci ilin noyabrında Qərbi Zəngəzur keçmiş ittifaqın məkrli uzaq planlarına uyğun olaraq Azərbaycandan zorla qoparılıb və Ermənistana birləşdirilib. Bundan iki il əvvəl isə Azərbaycan Xalq Cümhuriyyəti tarixi şəhərimiz olan İrəvanı, necə deyərlər, Ermənistana bağışlayıb. Bir çoxları bu addımın ermənilərin ərazi iddialarının qarşısını almaq məqsədilə atıldığını bildirirlər. Ancaq tarix bu yanaşmanın səhfv olduğunu təsdiqlədi. Ermənilər xüsusi bir xislətə malik olan toplumdur, onlar uşaqdan böyüyədək “dənizdən-dənizə Ermənistan” xülyası ilə yaşayırlar. Təsadüfi deyildir ki, İrəvanın Ermənistana peşkəş edilməsi heç nəyi dəyişmədi və cəmi iki ildən sonra ermənilər Qərbi Zəngəzuru da Azərbaycandan qoparmağa nail oldular. Sonuncu deportasiyayadək indiki Ermənistan ərazisində 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə soydaşlarımız məskunlaşmışdılar . Onların hamısı cəmi 3 il ərzində yurd yerlərindən zorla çıxarıldı. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. Ən acınacaqlı cəhətlərdən biri də ondan ibarətdir ki, Qərbi Azərbaycanda dağlıq zonada yaşamağa öyrəşmiş soydaşlarımızın yeni yaşayış ünvanları kimi bir qayda olaraq aran bölgələri seçilib ki, bu da adaptasiyanın çox ağır keçməsi ilə nəticələnib.

Eyni zamanda, Qarabağda da xalqımıza qarşı cinayətlər törədilib. Yüz minlərə insanın taleyinə bu şəkildə qərar verilməsi humanizm dəyərlərinin tamam unudulması anlamına gəlir. Ermənistanın ilk üç prezidentinin soydaşlarımıza münasibəti faşist ideologiyasına əsaslanıb. Bir neçə gün bundan əvvəl mətbuatda Ermənistanın birinci prezidentinin açıqlamaları yayıldı. İndiyədək özünü “demokrat” imicində təqdim etməyə çalışan Petrosyan etnik təmizləmə, azərbaycanlıların yurd yerlərindən vəhşicəsinə qovulması ilə öyünür.

Bütün bu kimi faktlar əyani şəkildə təsdiqləyir ki, Ermənistan dövləti bütün mövcudluğu dönəmlərində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb və bunu xüsusi qəddarlıqla həyata geçirib. Bu gün Ermənistan dünya üzrə monoetnik cəmiyyətə malik azsaylı dövlətlər sırasında yer alır.

### Soydaşlarımızın qayıdış hüququ təmin olunmalıdır





QAİ yaydığı bəyanatda Ermənistan hökumətindən Qərbi azərbaycanlıların qayıdış hüququnu təmin etməsi tələb olunur. Qarşı tərəfin bu məsələni Azərbaycanın Ermənistana yönəlik ərazi iddiaları kimi təqdim etməsinin və yaxud bunu özü üçün hərbi-siyasi risk faktoru kimi dəyərləndirməsi absurd yanaşmadır. Soydaşlarımızın qayıdış hüququ ilk növbədə tarixi ədalətə əsaslanır. Arxivlərdə XX yüzilliyin əvvəllərində çap edilmiş xəritələr var. Həmin xəritələrdən aydın şəkildə görünür ki, zamanında indiki Ermənistanın ərazisindəki yaşayış məntəqələrinin əksəriyyətinin adı Azərbaycan mənşəli olub. Sonradan məqsədyönlü siyasət aparılıb, toponimlərimiz eybəcər erməni adları ilə əvəzlənib. Götürək, elə “Sevan gölü”nü. Tarixi xəritələrdə beə bir ada rast gəlinmir, sututarın adı “Göyçə gölü” kimi göstərilir. Biz yuxarıda Ermənistanın birinci prezidentinin faşist ruhlu açıqlamalarından bəhs etdik. O da bildirib ki, indiki Ermənistanın bir çox regionlarında azərbaycanlılar əksəriyyət təşkil ediblər. İndi zaman gəlib ki, tarixi ədalət bərpa olunsun. Ermənistan rəhbərliyi bu məsələdə öz məsuliyyətini anlamalı və soydaşlarımızın ləyaqətli şəkildə geri dönüşünə şərait yaratmalıdır. Bu, onların haqqıdır . Təəssüf doğuran haldır ki, N.Paşinyan və onun komandasında yer alanlar bu məsələni Azərbaycanın Ermənistana qarşı ərazi iddiaları kontekstində təqdim etməyə çalışırlar. Halbuki, ölkəmizin belə bir niyyəti yoxdur. Söhbət insan haqları məsələsindən gedir.

Eyni zamanda, insanların qayıdış hüququ beynəlxalq konvensiyalarda da təsbit olunub. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququ zamanında doğma yurd yerlərindən zorla qovulmuş azərbaycanlılara da şamil olunmalıdır.

**M.ABDULLAYEV**

# 5 nəfər həlak olub, 36 nəfər isə müxtəlif dərəcəli xəsarət alıb...

## Mina terroru 2024-cü ildə də davam edib

Erməni terrorizminin əsas cinayətlərindən biri olan mina terroru bu günə qədər yüzlərlə insanın həyatına son qoyub. 30 ilə yaxın müddəti əhatə edən Qarabağ münaqişəsi 44 günlük Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsi ilə başa çatsa da, 2023-cü il antiterror əməliyyatları nəticəsində ölkəmizin suverenliyini bərpa olunsa da, Ermənistanın ölkəmizə qarşı apardığı mina terrorundan hələ də əziyyət çəkirik. Məlum olduğu kimi, uzun illərdir işğal altında saxlanılan və Müzəffər Ordumuz tərəfindən azad olunan torpaqlarımızın böyük bir hissəsi ermənilər tərəfindən minalanıb. Hətta 2020-ci ildə Ağdam, Kəlbəcər və Laçın rayonlarını tərk edərkən ermənilər həmin ərazilərə əlavə minalar basdırıblar. Post-müharibə dövründə Azərbaycanda mina problemi özünü kəskin şəkildə büruzə verir. Bu problemin aradan qaldırılması ilə məşğul olan qurumlar mina təhlükəsizliyi ilə əlaqədar dəfələrlə beynəlxalq təşkilatlara müraciət etsələr də, Ermənistanın hərbi cinayətlərinin qarşısını almaq mümkün olmayıb - müharibədən sonra Ermənistan tərəfindən təqdim edilən mina xəritələrinin isə cəmisi 25 faizi düzgün olub.

### 382 şəxs həyatını itirib




Mina terroru isə hələ də davam etməkdədir. 2024-cü ildə 41 şəxs Ermənistan tərəfindən basdırılmış mina və hərbi sursat partlayışlarının qurbanı olub. Bu barədə Baş prokuror Kamran Əliyev 2024-cü ildə prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclasında bildirib. Onun sözlərinə görə, mina qurbanlarından 5 nəfər həlak olub, 36 nəfər isə müxtəlif dərəcəli xəsarət alıb.

Baş prokuror, həmçinin qeyd edib ki, 2020-ci ilin noyabr ayından hazırkı vaxtadək 382 şəxs mina və hərbi sursat partlayışlarının qurbanı olub, həmin şəxslərdən 70-i həlak olub, 312 nəfər isə müxtəlif dərəcəli xəsarət alıb.



### Qurbanların 90 faizi mülki şəxslərdir




Təəssüfləndirici faktdır ki, bu gün sülhdən danışaraq manipulyasiya aparan, özünü dünyaya sülhpərvər qiyafədə təqdim etməyə çalışan Ermənistanın mina terroru ən əkskin şəkildə davam edir -son 30 ildə Azərbaycanda 3 400-dən çox insan mina qurbanı olub. Onların 90 faizi mülki şəxslərdir. Qeyd edək ki, işğal dövründə torpaqlarımıza, ilkin qiymətləndirmələrə görə, 1,5 milyondan artıq mina basdırılıb. Münaqişə bitdikdən sonra belə Ermənistan Laçın yolundan istifadə edərək Azərbaycan ərazilərinə minalar döşəməyə davam edib. Ərazilərimizdə 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı təsdiqləyir. Eyni zamanda, 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması bu təhdidin miqyasını sübut edən faktlardır.

Torpaqlarımızın kütləvi şəkildə minalarla çirklənməsi hazırda burada aparılan bərpa və yenidənqurma işlərini ləngitməklə yanaşı, insanların həyat və sağlamlığına ciddi təhdid yaradır, uzun illər doğma torpaqlarına dönmək arzusu ilə yaşayan yüz minlərlə məcburi köçkünün hüquqlarının reallaşdırılmasına əngəl törədir.

### Azərbaycan mina təmizlənməsi istiqamətində mühüm işlər aparır

Vurğulayaq ki, Azərbaycan 2030-cu ilədək olan dövrü əhatə edən yeni strateji mərhələdə Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış”ı təmin etməyi özünün 5 əsas prioritetindən biri kimi müəyyənləşdirib. Lakin bu strateji hədəfə çatmaq üçün ilk növbədə ərazilər minalardan təmizlənməlidir. Hazırda işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə işləri müvafiq qurumlar tərəfindən koordinasiyalı şəkildə həyata keçirilir. Minatəmizləmə fəaliyyətinin 90 faizindən çoxu Azərbaycanın daxili resursları hesabına aparılır. Bəzi xarici tərəfdaşlarla əməkdaşlıq edilsə də, ümumilikdə, xaricdən dəstək məhduddur. Humanitar minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir.

Bu siyasətin əsası Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub. Məhz onun uzaqgörənliyi nəticəsində 25 il əvvəl ANAMA yaradılıb. Prezident İlham Əliyevin 2021-ci il 15 yanvar tarixli 1251 saylı fərmanı ilə 1998-ci ildə Heydər Əliyevin Sərəncamı ilə təsis edilmiş Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əsasında publik hüquqi şəxs statuslu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) formalaşdırılıb.

Vurğulayaq ki, Media Təhlil Mərkəzi hazırladığı təhlildə son 4 il ərzində (2021-2024-cü illər) 179 min 186 hektar ərazi mina və partlamamış sursatlardan təmizləndiyini açıqlayıb. Ötən ildə işğaldan azad olunan ərazilərdə 62 min 23,9 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib. Bu da əvvəlki ilin göstəricisi ilə müqayisədə 16,8 faiz çoxdur. İşğaldan azad olunan ərazilərdə ötən il həyata keçirilən minatəmizləmə əməliyyatları zamanı 2 min 372 tank və 4 min 286 piyada əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib. Ümumilikdə isə işğaldan azad olunan ərazilərdə son 4 ildə (2021-2024-cü illər) 18 min 411 tank, 29 min 250 piyada əleyhinə mina aşkarlanaraq zərərsizləşdirilib. Minatəmizləmə əməliyyatlarını Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA), Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN), Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət yerinə yetirir. Eyni zamanda, işğaldan azad olunan ərazilərdə ötən il 59 min 163 partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərdə son 4 il (2021-2024-cü illər) ərzində aşkarlanaraq zərərsizləşdirilən partlamamış hərbi sursatların sayı 119 min 104-dür.

Vurğulayaq ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın Tədbirlər Planına əsasən, 2022-2025-ci illər ərzində 215 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulub. Bundan başqa, Tədbirlər Planında 2026-cı ilin sonuna kimi işğaldan azad olunmuş ərazilərdə minalardan təmizlənmiş ərazilərin sahəsinin 280 min hektara çatdırılması qeyd edilib ki, bunun da mühüm hissəsi yerinə yetirilib.

**P.SADAYOĞLU**

# Yelisey Sarayı xalqların azadlıq hüququnu tanımalıdır

Daim ədalət və beynəlxalq hüquq mövqeyindən çıxış edən Azərbaycan Afrikada, dənizaşırı ərazilərdə Fransanın müstəmləkəçilik siyasətinə qarşı azadlıq mübarizəsinə qalxan xalqlara qətiyyətli mənəvi-siyasi dəstək verir, onların səsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Təəssüf ki, ölkəmizin humanist yanaşması Yelisey Sarayında bir növ top-tüfənglə qarşılanır. Makron və onun komandasının təmsilçiləri Azərbaycanı Fransanın daxili işlərinə qarışmaqda ittiham edirlər. Makronun ardınca bu xüsusda çıxış edənlərdən biri də Fransanın xarici işlər naziri Jan-Noel Barron olub.

Bakının Fransa rəsmilərinin ölkəmizə qarşı əsassız iddialar səsləndirmələrinə cavabı isə özünü çox gözlətməyib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə və Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov Fransa rəsmilərinin heç bir əsası olmayan ittihamlarına kəskin münasibət bildiriblər.

## Rəsmi Parisin Yeni Kaledoniya əhalisinin tələblərini ört-basdır etmək cəhdi

"Fransanın xarici işlər naziri Jan-Noel Barronun Azərbaycanı dənizaşırı ərazilərin işlərinə qarışmaqda ittiham edən şərhi Fransanın Yeni Kaledoniya yerli əhalisinin tələblərinə qarşı hərəkətsizliyini ört-basdır etmək cəhdidir.

Məhz Fransa həmişə regional məsələlərə qarışmış və Azərbaycanın sülh və sabitliyi bərpa etmək istiqamətində apardığı prosesi pozmağa çalışmışdır", - deyə Ayxan Hacızadə vurğulayıb.

Hazırda dekolonizasiya XXI yüzilliyin əsas çağırışları sırasında yer alır. BMT-nin bununla bağlı müvafiq qətnamələri var. Həmin sənədlərdə müstəmləkə ölkələrinin müstəqilliyinin tanınması zərurət kimi göstərilir. Bakı Təşəbbüs Qrupu da Fransanın müstəmləkə siyasətini və dənizaşırı ərazilərdəki problemlərini ictimaiyyətə çatdırmağı hədəfləyir. Fransa rəsmilərinin bu cür qrupların işini gözdən salmaq cəhdləri isə dekolonizasiya prosesini zəiflədir. Ayxan Hacızadə diqqəti son vaxtlarda Yeni Kaledoniyada yaşananlara yönəldib. "Keçən il güc tətbiqi nəticəsində azı 14 nəfərin öldüyü və bir çox insanın yaralandığı Yeni Kaledoniyanın yerli əhalisinə qarşı repressiya siyasətinə son qoymaq əvəzinə, Azərbaycana qarşı şantaj Fransanın xarici siyasət strategiyasının nə qədər əhəmiyyətsiz olduğunu nümayiş etdirir.

Bundan əlavə, Fransanın müxtəlif beynəlxalq təşkilatlardakı rol və resurslarından neomüstəmləkə siyasətinə qarşı təbliğat aparmağı hədəfləyən beynəlxalq QHT müdafiəçilərinə təzyiq göstərmək üçün sui-istifadə etməsi mənasızdır və heç bir nəticə verməyəcək.

Fransa xarici işlər nazirinin anti-Azərbaycan iddialarını qətiyyətlə rədd edir və pisləyirik", - deyə Azərbaycan XİN rəsmisi bildirib.

Demokratik ənənələri ilə öyünən Fransanın XXI əsrdə müstəmləkəçiliyi yeni formada, lakin daha ağır şərtlər altında həyata keçirməsinin heç bir izahı yoxdur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir.

Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Atlantik və Hind Okeanı regionunda, Latın Amerikasında onlarla ölkəni işğal altına alan, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyub. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı Fransanın qul siyasətinin qurbanına çevrilib.




Ümumiyyətlə, Fransanın müstəmləkəçilik siyasəti həyata keçirdiyini təsdiqləyən faktların siyahısı çox uzundur. Fransız missionerlərin Yeni Kaledoniyaya ayaq açması XIX əsrin ortalarına təsadüf edir. Missionerlərin adaya gəlişi ilə yerli sakinlərin qara günləri başlayıb. 1853-cü ildə isə Fransa adanı özünün müstəmləkəsi elan edib. XIX əsrin sonuna qədər Fransa adanın yerli sakinlərini istismar etməklə yanaşı, qatı cinayət törətmiş məhkumlarını da bu adaya sürgün edirdi. XX əsrin əvvəllərindən başlayaraq Fransa adada tapılmış faydalı qazıntı yataqlarını da istismar etməyə başlayıb. Ada qızıl, bürünc, xrom, nikel, dəmir və s. filiz ehtiyatları ilə zəngindir. Fransa digər müstəmləkələrində olduğu kimi, burada da təbii sərvətləri talayıb, yerli əhalidən isə ucuz işçi qüvvəsi kimi istifadə edib. Ada sakinləri ötən əsrin 80-ci illərindən etibarən Fransanın ağır müstəmləkəçilik siyasətinə qarşı etirazlara başlayıblar. Onların yeganə məqsədi Fransanın sərhəd tanımayan zülmündən birdəfəlik qurtulmaqdır.

Kanak xalqının ötənilki etirazlarına səbəb isə Makron hakimiyyətinin Yeni Kaledoniya ilə bağlı mürtəce planı həyata keçirməyə başlamasıdır. Siyasi sifariş əsasında Fransa parlamenti Yeni Kaledoniyada konstitusiya "islahatları" ilə bağlı müzakirələrə start vermişdi. Əslində, "islahatlar" Fransanın xəbis niyyətlərindən xəbər verir. Bu dəyişikliklərin yeganə məqsədi Yeni Kaledoniyada aborogen xalqın hüquqlarını məhdudlaşdırmaq, bunun əksinə olaraq gəlmə fransızların hüquqlarını genişləndirməkdir. Yeni Kaledoniyada etirazların miqyasının geniş olması burada yerli icmanın fəallığı ilə bağlıdır. Fransa hakimiyyəti bunun qarşısını almaq üçün qüvvələr balansını tarazlaşdırmağı hədəfləyib. Makron iqtidarı düşünür ki, kanak xalqının mövqelərini zəifətmək üçün gəlmələrə hüquqi müstəvidə yeni imkanlar açılmalıdır. Bu dəfə söhbət onların seçki hüquqlarının tanınmasından gedir. Səsvermə sisteminin dəyişdirilməsi ilə bağlı Fransa parlamentinin müzakirəsinə çıxarılan qanun layihəsinə görə, 10 il Yeni Kaledoniyada yaşayan Fransa vətəndaşları əyalət seçkilərində səs verə biləcəklər. Fransa hakimiyyətinin Yeni Kaledoniyada gəlmələrin seçki hüquqlarını genişləndirmək planı çox doğru olaraq elektoratın tərkibini dəyişmək hədəfi anlamında qəbul olunur. Bu isə yerli kanak xalqının mənafeyinə ziddir. Buna görə də kanaklar müvafiq qanunun qəbul ediləcəyi təqdirdə öz tarixi vətənlərində ikinci dərəcəli etnik qrupa çevriləcəklərini düşünürlər və bunun qarşısını almaq üçün ayağa qalxıblar.

## BTQ: Fransanı əsassız ittihamları kənara qoymağa və əməkdaşlığa dəvət edirik






Azərbaycan Fransanın digər müstəmləkə ərazilərində olduğu kimi, Yeni Kaledoniyada baş verənlərə də biganə qalmır. Respublikamızın uğurlu sədrlik həyata keçirdiyi Qoşulmama Hərəkatının (QH) tərkibində Bakı Təşəbbüs Qrupu yaradılıb. Fransanın son koloniyalarında azadlıq mübarizəsi aparan xalqlar bu qrupda birləşiblər. Bakı Təşəbbüs Qrupu Fransanın müstəmləkəçilik siyasətinə münasibətdə susmur, azadlıq mübarizəsinə qalxan xalqların səsinin bütün dünyada eşidilməsinə, onlara həmrəylik göstərilməsinə nail olmağa çalışır. Qurum həmçinin Fransa hakimiyyəti tərəfindən Yeni Kaledoniyada kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair bəyanat yayıb. Sənəddə Fransa təhlükəsizlik qüvvələrinin kanak xalqına qarşı törətdiyi zorakılıqların dərin narahatlıq doğurduğu diqqətə çatdırılıb. Bildirildiyi kimi, ictimai toplantıların qadağan edilməsi və müstəqillik tərəfdarlarının həbsi bu məsələnin qalıcı həlli hesab edilə bilməz.

"Fransa hökumətini əsassız ittihamları kənara qoymağa və əməkdaşlığa dəvət edirik". Bunu Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Fransa rəsmilərinin təşkilata qarşı səsləndirdiyi əsassız ittihamlara cavab olaraq bildirib. Fikirlərinə davam edən A.Abbasov vurğulayıb: "Bildiyiniz kimi təməli Azərbaycanda qoyulan Beynəlxalq Dekolonizasiya Cəbhəsinin 2025-ci ilin 23-24 yanvarında Kanakidə (Yeni Kaledoniya) Konqresi keçirilib. Fransa rəsmiləri müstəmləkələrin dekolonizasiya prosesini Fransanın daxili işi adlandırır və bu xüsusda, Bakı Təşəbbüs Qrupunu Fransanın daxili işlərinə müdaxilədə ittiham edir. BTQ iddiaları qətiyyətlə rədd edir və pisləyir".

Onun sözlərinə görə, dövlət bayrağımızın Kanakidə dalğalandırılması kanak xalqının Azərbaycana və onun Liderinə minnətdarlıq jestidir. "Fundamental insan hüquqları, habelə insanların azad olmaq istəyi bir ölkənin daxili işi sayıla bilməz və özünü demokratiyanın beşiyi adlandıran Fransada rəsmilər bunu yaxşı dərk edir. XXI əsrdə müstəmləkəçiliyə yer yoxdur və həmin ərazilərin bu hüququ adaların əsl sahibi olan xalqlara münasibətdə təcili tanınmalıdır. Harada olmasından asılı olmayaraq, azadlıqlar ümumbəşəri dəyərdir və ona hamı tərəfindən hörmət edilməlidir", - deyə BTQ-nin icraçı direktoru bildirib. "Müstəqil olmaq koloniyaların haqqıdır. Bu həm də tarixi ədalətin bərpası kimi qiymətləndirilə bilər" deyən A.Abbasov vurğulayıb ki, BTQ müstəmləkəçiliyə qarşı mübarizə aparan beynəlxalq QHT kimi öz mandatına uyğun olaraq dekolonizasiya prosesini əsas hədəfi elan edib və bu istiqamətdə qanuni fəaliyyət göstərir. O, beynəlxalq təşkilatları və ictimaiyyəti bu işdə BTQ-yə dəstək olmağa çağırıb.

***Mübariz ABDULLAYEV***

# "Qara qutu"ların materialları yaxın zamanda açıqlanacaq

## Materialların surəti həm Azərbaycana, həm də Rusiyaya təhvil verilib

"Azərbaycan Hava Yolları"na (AZAL) məxsus Bakıdan Qroznıya uçan sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı yeni detallar meydana çıxmaqdadır. Belə ki, AZAL-ın J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin "qara qutu"larının materiallarının surəti Azərbaycan və Rusiyaya təhvil verilib, yaxın zamanda açıqlanacağı gözlənilir. Qeyd edək ki, ötən həftənin sonunda bununla bağlı açıqlamasında Qazaxıstanın baş nazirinin müavini Kanat Bozumbayev bildirmişdi ki, "qara qutu"ların materialları internetdə yayımlanan stenoqramlardan fərqlənir. "Caliber.az" saytı isə mənbələrə istinadən yazıb ki, Rusiyada aparılan cinayət işi hava gəmisinin "Pantsir S-1" HHM sistemi ilə vurulduğunu təsdiq edir.

## Moskva həqiqətləri qəbul etməlidir...

Qeyd edək ki, hadisə baş verən andan etibarən məsələ dövlət başçısı tərəfindən şəxsən nəzarətə götürülüb, qəzanın səbəblərinin araşdırılması üçün Dövlət Komissiyası yaradılıb. Komissiya üzvləri qəza yerinə baxış keçiriblər, ekspertlər bununla bağlı fikirlərini bölüşüblər. Vurğulandığı kimi, Azərbaycan məsələ ilə bağlı həqiqətlərin açılması üçün var gücünü səfərbər edib. Dövlət başçısı ötən il dekabrın 29-da Azərbaycan televiziyasına müsahibəsində bildirmişdi ki, qəzanın təfərrüatları tam araşdırılacaq: "Bundan mənim şübhəm yoxdur".

Təbii ki, baş verən hadisənin təfərrüatları "qara qutu"nun araşdırılması ilə tam şəkildə ortaya çıxacaq. Vurğulandığı kimi, artıq yekunlaşıb və "qara qutu"larının materiallarının sürəti Azərbaycan və Rusiyaya təhvil verilib. Bu isə onu göstərir ik, rusiyanın bəzi orqanları məsələnin istiqamətini fərqli cəhətlərə yönləndirmək istəsələr də, bu mümkün olmayacaq - materiallar həm də Azərbaycana verildiyi üçün həqiqətlə barışmalıdırlar. Çünki həqiqəti gizlətmək cəhdi Moskva üçün indiki məqamda yaxşı heç nə vəd etməyə bilər. Hüquqi qiymətləndirmə nəticəsində baş verənlərdə günahı olanların məsuliyyətlərləri aydındır - Rusiya bununla bağlı lazımi addımları atmalıdır.

## Artıq manipulyasiyaya yer yoxdur...



Azərbaycan hər zaman beynəlxalq hüquqa və ədalətə istinad edib - ümumiyytələ, dövlətlərarası münasibətlərdə xüsusilə qonşularla münasibətdə rəsmi Bakının tutduğu mövqe səmimi və davamlıdır. Rusiyanın bəzi dairələri məsələnin bu yolla ötüşdürülməsini, hətta bəzi məqamlarda unutdurulmasına çalışsalar da, bu mümkün deyil. Təsadüfi deyil ki, Rusiyada bəzi dairələr və şəxslər məsələ ilə bağlı səhv yol seçiblər - hətta Azərbaycana qarşı antikampaniya aparmaq üçün mediadan istifadə edilməsi qəbuledilməzdir. Azərbaycanın istəyi tam qanuni və şəffafdır - bu işdə məsuliyyətin, ədalətli istintaqın, günahkarların cəzalandırılmasının və zərərçəkənlərə kompensasiya ödənilməsinin vacibliyi ön plana çəkilir. Rusiyanın bəzi instansiyaları isə gah Azərbaycanı neonasistlərin dili ilə hədələyir, gah da "Komsomolskaya pravda"da bir sifarişli mirzənin vasitəsilə uydurmalar qoşur. Artıq hər hansı manipulyasiyaya yer yoxdur - "qara qutu"nun oxunması bütün suallara cavab verəcək. Rusiyadan gözlənilən mövqe ondan ibarət idi ki, dost və qonşu dövlət kimi davranmalı, suallara cavab verməli, məsələni obyektiv araşdırılmasına kömək etməli və üzərinə düşən vəzifələri yerinə yetirməli idi. Amma onlar bu addımların əvəzinə oyun oynamağa üstünlük verdi.

## Gözləntilərimiz...



Azərbaycan hər zaman hüquqi prosedurlara, eyni zamanda, etik qaydalara riayət edib - hətta 2020-ci il noyabrın 9-da Azərbaycan hərbçiləri tərəfindən Rusiya helikopterinin vurulmasında, eləcə də 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatları zamanı "sülhməramlılara" məxsus avtomobilin atəşə məruz qalmasında günah rusiyalı hərbçilərdə olduğu halda, Azərbaycan üzr istədi, təzminat ödədi və lazımi hüquqi ölçü götürüldü. İndiki məqamda rusiyanın da öhdəsinə düşən məhz bu prosedura layiqli şəkildə əməl etməsidir. Azərbaycan Prezidenti müsahibəsində bildirmişdi ki, biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik: "Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir?

Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur. Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək".

Bəli, Azərbaycan hər zaman bütün dövlətlərlə qarşılıqlı əlaqələrin intensivliyində maraqlıdır, münasibətlərin dost və tərəfdaş müstəvisində inkişaf etməsinin tərəfdarıdır. Bizim üçün əsas olan amil hüquqi məsuliyyətin dərk edilməsi və bu ölçüdə davranılmasıdır. Vurğulandığı kimi, rusiyadan gözləntilər də bundan ibarətdir. Yaxın günlərdə "qara qutu"dan çıxan informasiyaların açıqlanması ilə bütün qaranlıq suallara cavab gələcək. Həmin vaxt Rusiya üzərinə düşəni yerinə yetirməlidir...

***P.İSMAYILOV***

# Satirik qələmlə mübariz keşikdə

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında satirik ədəbiyyatın əsas yaradıcılarından biri olan yazıçı-publisist Xeyrəddin Qoca artıq ölkəmizdə bu sahənin ən aparıcı simaları sırasındadır. Çətin və məsuliyyətli yaradıcılıq sahəsi olan satirik ədəbiyyatın böyük ənənələrinin yaşadılması və yeni tarixi dövrə uyğun olaraq yaradıcı şəkildə inkişaf etdirilməsi Xeyrəddin Qocanın ədəbiyyat sahəsindəki əsas uğurudur. O, əvvəlcə tənqidi xarakterli publisist məqalələr yazıb çap etdirməkdən tədricən satirik nəsrə keçmiş və bu istiqamətdə özünü tapmışdır. Artıq Azərbaycan ədəbi-elmi ictimaiyyəti Xeyrəddin Qocanı ciddi satirik yazıçı kimi yaxından tanıyır və onun satira yaradıcılığı sahəsindəki fəaliyyətini yüksək qiymətləndirir.

Çoxcəhətli fəaliyyətə malik olan Xeyrəddin Qocanın keçdiyi yol maarifçilikdən publisistikaya, ictimai fəaliyyətdən rəsmi diplomatik işə, qəzetçilikdən satirik nəsrə qədər geniş bir dairəni özündə cəmləşdirir. Keçilən yolun təhlili göstərir ki, maarifçilik onun çoxcəhətli fəaliyyətinin möhkəm bünövrəsini təşkil edir. Yazıçı üçün zəruri olan cəmiyyət həyatının, ictimai gedişatın, insanlararası münasibətlərin dərindən dərk olunub ələkdən keçirilməsi maarifçi düşüncənin səviyyəsi ilə müəyyən olunur. Müəllim ailəsində böyüyüb boya-başa çatması, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ali təhsil alması Xeyrəddin Qocanın dünyagörüşünün formalaşmasında maarifçi baxışların mühüm yer tutduğunu göstərir. Həyatını bütövlükdə maarifçiliyin təməl prinsiplərindən biri olan mətbuata bağlaması da onun maarifçi baxışlarının yetkinləşməsində və zənginləşməsində rol oynamışdır. Xeyrəddin Qocanın dünyagörüşü müəllim ailəsi, məktəb, mətbuat, ədəbiyyat və teatr mühitində mərhələ-mərhələ inkişaf edərək, nəhayət, cəmiyyət hadisələrinə münasibətdə müəyyən baxış bucağının yaranması ilə nəticələnmişdir. Fikrimizcə, onun yaradıcılığında əsas yer tutan həqiqət axtarıcılığı amili də milli maarifçilik zəminində ərsəyə gəlmiş həyat və sənət prinsipidir.

Mətbuat sahəsində keçdiyi yol Xeyrəddin Qoca üçün ilk növbədə, həyatı və insanları daha yaxından tanımaq, habelə qələm vərdişləri qazanmaq baxımından böyük məktəbə çevrilmişdir. "Politexnik" qəzetinin müxbirliyindən, ayrı-ayrı qəzet redaksiyalarında daşıdığı baş redaktor müavini vəzifələrindən, "Dan ulduzu" və "Yeni Azərbaycan" qəzetlərinin baş redaktorluğunadək keçilən çətin və məsuliyyətli yolun təcrübəsi onun üçün təkcə qəzet materiallarını geniş oxucu kütləsinə çatdırmaqdan ötrü yox, həm də həyat materialını dərindən öyrənmək və təqdim etmək baxımından ciddi zəmin hazırlamışdır. Beləliklə, maarifçi dünyagörüş və zəngin həyat təcrübəsi və mətbuat dünyası Xeyrəddin Qocanı yaradıcılığa və ictimai fəaliyyətə gətirən başlıca amil olmuşdur.

XX əsrin sonlarında Xeyrəddin Qoca artıq mətbuatda və həyatın burulğanlarında bişib möhkəmlənmiş yetkin qələm ustası və əsl əqidə sahibi idi. Cəmiyyət həyatında baş verən mürəkkəb ictimai-siyasi proseslərin alt qatlarını, dərinliklərini görə bilmək, əsas inkişaf meyillərini düzgün dəyərləndirmək bacarığı sayəsində o, xalqımızın nicatı yolları barədə düşünərkən, Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevə üz tutmağın zəruriliyini hamıdan tez hiss edənlərdən, gün kimi aydın olan bu gerçəkliyi birmənalı şəkildə qəbul edənlərdən biri kimi, yeni Azərbaycan uğrunda fəal mübarizəyə ilk qoşulanlardan olmuşdu. Xeyrəddin Qoca Heydər Əliyevçilik - yeni azərbaycançılıq hərəkatına ürəklə bağlı olan, bu hərəkatın reallığına və gələcəyinə dərindən inanan vətənpərvər Azərbaycan ziyalısıdır. Yeni Azərbaycan Partiyasında və eyniadlı qəzetdəki səmərəli fəaliyyəti onun həyatının mühüm əhəmiyyətə malik olan tarixi səhifələridir: "Yeni Azərbaycan" qəzetindəki məqalələri geniş mənada yeni azərbaycançılığa xidmətin yadda qalan publisist səhifələridir. Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi də Xeyrəddin Qoca Yeni Azərbaycançı mövqeyinə sadiq qalaraq mübariz təmsilçi və dönməz müdafiəçi kimi fəaliyyət göstərmişdir. Nəhayət, Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsində çalışmış Xeyrəddin Qoca müstəqil dövlətimizin maraqlarının ölkəmizdən kənarlarda da qorunub möhkəmləndirilməsi və inkişaf etdirilməsi yollarında mühüm xidmətlər göstərmişdir.

Heç şübhəsiz ki, Xeyrəddin Qoca, hər şeydən əvvəl, tanınmış qəzetçi-publisistdir. Fəal vətəndaşlıq mövqeyi, cəmiyyət hadisələrinə aydın və cəsarətli münasibət, habelə qələm vərdişlərinin yetkinliyi onun publisistikasının səciyyəvi xüsusiyyətləridir. Azərbaycan mətbuatının mübariz ənənələri üstündə köklənmiş Xeyrəddin Qoca ölkəmizdə yeni tarixi mərhələnin publisistikasının əsas yaradıcılarından biridir. Ümumiyyətlə, o, müstəqillik dövrü yeni azərbaycançı publisistikasının tanınmış nümayəndəsidir. Publisistikasındakı ictimai kəsər, aydın vətəndaşlıq mövqeyi, cəsarətli münasibət onun yazıçı kimi daha da inkişaf edib ədəbiyyatın ön cəbhəsinə çıxmasına müsbət təsir göstərmişdir.

Artıq Azərbaycan oxucusu Xeyrəddin Qocanı daha çox satirik yazıçı kimi tanıyır. Tərəddüd etmədən demək olar ki, Xeyrəddin Qoca müstəqillik dövrü Azərbaycan satirik nəsrinin görkəmli yaradıcılarından biridir. O, hələ təlebəlik illərində satirik nəsr sahəsində ilk addımlarını atmış, sonralar həyatının bütün mərhələlərində satiraya sadiq qalaraq, bu istiqamətdə fəaliyyətini uğurla davam etdirmişdir. Vaxtilə "Kirpi" jurnalında çap edilən satirik hekayələri və felyetonları ilə o, geniş oxucu auditoriyasının və ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Bütün bunlarla bərabər, Xeyrəddin Qoca satirik yazıçı kimi müstəqillik dövründə parlamış, böyük nüfuz qazanmışdır. Xeyrəddin Qoca satirik ədəbiyyatda qüdrətli yazıçı və vətəndaş publisist Cəlil Məmmədquluzadənin rəhbərlik etdiyi "Molla Nəsrəddin" ədəbi məktəbinin yeni əsrdəki sadiq davamçısıdır. Özünün də etiraf etdiyi kimi, onun satira yaradıcılığına ardıcıl münasibətlərin mahiyyətində "mollanəsrəddinçilik işini davam etdirənlərdən biri olmaq arzusu" əsas yer tutmuşdur. Hazırda Xeyrəddin Qoca yeni dövr Azərbaycan ədəbiyyatında satirik nəsr və publisistika sahəsində mövcud olan boşluğu aradan qaldırmağa şərəflə xidmət edən ən aparıcı yazıçı-publisistdir. Məlum olduğu ki, hazırkı ədəbi prosesdə satirik şeir yazmaq istiqamətində müəyyən canlanma müşahidə olunsa da, satirik nəsr və publisistika üzrə böyük bir boşluq nəzərə çarpmaqdadır. Xeyrəddin Qoca müasir mərhələdə satirik nəsrin və vətəndaşlıq publisistikasının fədakar yaradıcısıdır. Məhz onun yorulmaz satirik yazıçı kimi ardıcıl yaradıcı fəaliyyəti ilə ədəbiyyatımızda həmin boşluq hiss olunmur. Xeyrəddin Qoca neçə illərdir ki, "Molla Nəsrəddin" məktəbi ənənələrini davam və inkişaf etdirmək yollarında ardıcıl olaraq çalışmaqla yeni tarixi dövrün görkəmli mollanəsrəddinçisi miqyasına gəlib çıxmışdır.

Müşahidələr göstərir ki, Xeyrəddin Qocanın satirası mövzu və ideya etibarilə onun siyasi əqidəsi olan azərbaycançılıq dünyagörüşünün təzahürlərindən ibarətdir. O, müstəqil Azərbaycan dövlətinin daha da inkişaf etdirilməsi yollarında əl-ayağa dolaşan nə varsa, hamısının satirik gülüşün tənqid hədəfinə çevrilməsi cəbhəsində mübariz keşikdədir. Bununla yanaşı, Xeyrəddin Qocanın satirik nəsri janr baxımından da zəngin və rəngarəngdir. İlk növbədə, onu qeyd etmək lazımdır ki, yazıçı Xeyrəddin Qoca müstəqillik dövrü Azərbaycan ədəbiyyatında miniatür satirik nəsrin əsas yaradıcısıdır. Yığcamlıq, hazırcavablıq, konkret hədəf seçmək, sərrastlıq, bədii ümumiləşdirmə qabiliyyəti Xeyrəddin Qocanın satirik nəsrinin ana xətləridir. Qələmə aldığı miniatür hekayələrində o, cəmiyyətin inkişafına mane olan meyilləri ciddi yazıçı sərrastlığı ilə seçib ayırmış, görüb göstərmişdir. O, Azərbaycan ədəbiyyatında Əbdürrəhim bəy Haqverdiyevdən sonra müasir həyatın "maralları"nın bədii obrazını yaratmağa müvəffəq olmuşdur. Xeyrəddin Qocanın "maralları" Molla Nəsrəddin "maralları"nın davamçıları, xələfləridir. O, tənqid hədəfi, obyekt kimi seçdiyi mövzunu və ya obrazı konkret həyat hadisələrinin axarında göstərməklə, nəticə olaraq "hərə öz payını götürsün" prinsipinə əməl edir. Bu baxımdan Xeyrəddin Qoca Azərbaycan ədəbiyyatının yeni dövrünün Əbdürrəhim bəy Haqverdiyevi olmaq adına sədaqətlə xidmət edir.

Yaxşı cəhətlərdən biri də odur ki, Xeyrəddin Qocanın miniatür hekayələrində nəsihətçilik yoxdur. Bu hekayələrdən nəticəni oxucu özü çıxarmalı olduğu üçün Xeyrəddin Qocanın satirası düşündürücü gülüşün bədii ifadəsinə çevrilir. O, satira vasitəsilə həm güldürməyə və həm də düşündürməyə çalışır və buna nail ola bilir. Onun yaradıcılığındakı düşüncə ilə gülüşün vəhdəti nəticə etibarilə əsl satirik ədəbiyyat nümunələrinin meydana çıxması ilə nəticələnir. Hər iki amili kiçik həcmə malik olan miniatür nəsr nümunələri vasitəsilə həyata keçirmək isə Xeyrəddin Qocanın yaradıcılıq istedadının konkret əməli ifadəsidir.

Xeyrəddin Qoca Azərbaycan yazıçıları arasında həm də miniatür hekayə kitablarının da ilk yaradıcılarındandır. Yəni o, yığcam miniatür hekayələr yaratdığı kimi, miniatür hekayələrdən ibarət olan kiçikhəcmli miniatür kitabların da müəllifidir. Xeyrəddin Qocanın əl kitabı kimi meydana çıxan miniatür kitabları sadə və yığcam süjetinə, aşıladığı düşündürücü ictimai fikirlərə görə dərhal qəlb kitablarına çevrilir. Müəllifin satirik etüdləri xatırladan hekayələri həcm etibarilə miniatür kitabın cəmi bir səhifəsində, bəzən yarım vərəqində yerləşir. Bununla belə, həcm baxımından çox yığcam olan hekayəciklərdə təsirli və düşündürücü mətləblər öz əksini tapmışdır. Çox yığcam miniatür hekayə mətnində böyük mətləbləri əks etdirmək Xeyrəddin Qocanın yaradıcılıq özünəməxsusluğu hesab oluna bilər. Hətta cəmi bir cümlədən ibarət olan "Atalar sözləri" formatındakı satirik etüdləri vasitəsilə də Xeyrəddin Qoca hər hansı bir hekayənin ifadə edə biləcəyi mətləbi canlandırmağı bacarır: "Bir vəzifəyə sahib olar-olmaz, özünə qoruma tut ki, önəmli kişidir desinlər", "Yalandan gülümsə ki, qəlbindəki bəlli olmasın" - qəbilindən olan yazıçı təxəyyülü vasitəsilə yaradılmış atalar sözlərinin bətnində ciddi bir hekayənin mətni yaşayır. Yazıçının cəmi iki-üç sətirdən ibarət olan "satirik tövsiyələr"i də miniatür satirik nəsrin yaddaqalan örnəkləri kimi diqqəti cəlb edir. Məsələn, "Müdirin yanına getmək istədiyiniz zaman önsə katibədən bu gün onun əhvalı necədir, deyə soruşun; yardım etdiyiniz kişini minnət altında qoyun. Yoxsa, işin öz-özünə başa gəldiyini zənn edər, hörmətsiz olarsınız; Azərbaycan musiqisini çox dinləməyin, yoxsa, geri qalmışdır, deyərlər; səhnədə kim çox bağırırsa, onu alqışlayın. Bu, o deməkdir ki, o, çox yaxşı oxuyur". Bu satirik tərzdə deyilmiş bir cümləlik yumoristik tövsiyələr Xeyrəddin Qocanın yaradıcılığında ardıcıl olaraq davam etdiyi üçün miniatür janr təsiri bağışlayır.



Xeyrəddin Qocanın satirik nəsrində publisistika əlamətləri güclüdür. Bu, bir tərəfdən, müəllifin qəzetçiliklə daha çox məşğul olmasından, digər cəhətdən isə, seçilmiş mövzuların xarakterindən irəli gəlir. Publisistikaya meyil yazıçının miniatür hekayələrinin aktuallığını, müasirliyini və kəsərini daha da artırır. Xeyrəddin Qocanın miniatür satirik nəsr nümunəsi olan bir çox kiçik hekayələri həyatda baş verən hadisələr təəssüratı oyadır. Bir çox hallarda isə o, özünün iştirakı ilə olmuş əhvalatları, yaxud şəxsən müşahidə etdiyi həyati məqamları qələmə almaqla satirik hekayələr yaratmağa müvəffəq olur. Satirik hekayələrində süjetin çoxşaxəliliyi onun həyatı və insanı daha geniş planda təsvir etməsinə şərait yaradır. Miniatür hekayələrində olduğu kimi, satirik hekayələrində də Xeyrəddin Qoca daha çox yumoristdir. Daha doğrusu, onun hekayələrində satira ilə yumor bir yerdə çıxış edir. Xeyrəddin Qoca cəmiyyət hadisələrinə münasibətdə yumorist, yaramaz tipə münasibətdə isə satirikdir. Onun hekayələri mənəvi mühitin islah olunmasına, başabəla tiplərin isə ifşa edilməsinə xidmət edir.

Satirik nəsrlə yanaşı, komediya janrında da Xeyrəddin Qoca özünəməxsus uğurlar qazanmışdır. Hekayələri kimi, onun komediyaları da yığcam, düşündürücü və ibrətamizdir. Bu pyeslər janrına görə şərti olaraq, satirik-yumoristik komediyalar adlandırmaq olar. "Hərənin öz payı" komediyası Xeyrəddin Qocanın hekayələrindən təşkil olunmuş orijinal dram əsəridir. Buna baxmayaraq, dram əsərlərində Xeyrəddin Qoca hekayələrindəki təhkiyəni, nağıletməni dramaturgiyaya xas olan dialoq və monoloqlara çevirməyi bacarmışdır. Bundan başqa, o, komediyalarında Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyevin ictimai idealları ilə müasir həyatın əlaqələndirilməsi əsasında yazılmış "Hərənin öz payı..." komediyasında həm də Mirzə Ələkbər Sabirin şeirlərindən istifadə etməklə klassik ədəbi irs və müasir həyat formatında orijinal bir dram əsərini meydana gətirmişdir. XX əsrin əvvəllərində bu formatda yazılmış Əbdürrəhim bəy Haqverdiyevin "Xəyalət" pyesində avtobioqrafik motivlər ön planda olduğu halda, Xeyrəddin Qocanın "Hərənin öz payı" əsərində şəxsiyyətlər deyil, mövzular və tiplər diqqət mərkəzinə çəkilmişdir. "Hərənin öz payı" pyesi yeni tarixi dövrün orijinal mollanəsrəddinçi dram əsəridir.

Bütün bunlara görədir ki, "Hərənin öz payı" komediyası Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulmaq statusu qazana bilmiş və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Müasir cəmiyyətin problemlərini əks etdirən "Qonşulaşma, qohumlaşma, kirvələşmə" komediyası Azərbaycan Dövlət Televiziyası ilə tamaşaçılara çatdırılmış və rəğbət qazanmışdır. "Bu, bizim zəmanədir", "Düzü-düz, əyrini-əyri", "Toy olacaq..." komediyalarında cəmiyyətdə gedən yeniləşmə proseslərinin işığında, həyati meyillərin axarında mənəvi-əxlaqi dəyərlərin qorunmasının aktual məsələsi gündəmə gətirilmişdir. Bu komediyalarda ilk növbədə, Xeyrəddin Qocanın cəmiyyət həyatına dərindən bələd olması və aydın yazıçı mövqeyi diqqəti cəlb edir. Eyni zamanda, hekayələrində yaddaqalan satirik tiplər yaradan Xeyrəddin Qocanın komediyalarında bənzərsiz komik xarakterlər təqdim etməsi də diqqəti cəlb edən yaradıcılıq xüsusiyyətidir.

Ümumiyyətlə, Xeyrəddin Qocanın çoxcəhətli yaradıcılığı ölkəmizdə yeniləşmənin, mənəvi kamilliyin, əqidə bütövlüyünün, sabit ictimai mövqeyə malik olmağın möhkəmləndirilməsinə ünvanlanmışdır.

Azərbaycan ədəbi tənqidinin və tanınmış Türkiyə ziyalılarının Xeyrəddin Qocanın yaradıcılığına verdikləri yüksək qiymət həm də yeni dövr Azərbaycan ədəbiyyatında satiranın dəyərləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Xeyrəddin Qocanın yaradıcılığı Azərbaycan ədəbiyyatının satirik qolunu daha da zənginləşdirir və inkişaf etdirir.

Bu gün həyatının yetmiş beşinci ilini Xeyrəddin Qoca nikbin gülüşlə, xoş təbəssümlə qarşılayır. Xeyrəddin Qocanın yazıçı düşündürücü gülüşü xeyirə, yaxşılığa, halallığa, nikbinliyə, sabaha yol açır.

Xeyrəddin Qoca satirik qələmlə müstəqil dövlətçiliyimizin mübariz keşiyindədir

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***

# Miqrantlara qarşı mübarizə güclənir...

## ABŞ tarixin ən böyük kütləvi deportasiya əməliyyatına başlayır

Müasir dünyanın ən mühüm problemlərindən və acı reallıqlarından biri olan qeyri-qanuni miqrasiya məsələsi yenidən gündəmə gəlir. Belə ki, Donald Trampın rəsmi şəkildə prezident səlahiyyətlərinə başlaması ilə ABŞ-da qeyri-qanuni miqrasiyaya qarşı tədbirlər kəskinləşir. Xatırladaq ki, Tramp həm seçki kampaniyası dövründə, həm də andiçmə mərasimindəki çıxışında miqrantlara qarşı kəskin addımların atılacağı ilə bağlı fikirlər irəli sürmüşdü.

Son məlumata əsasən isə ABŞ-da miqrasiya ilə mübarizə üzrə genişmiqyaslı əməliyyat çərçivəsində terrorda şübhəli bilinən şəxs də daxil olmaqla 538 qanunsuz miqrant saxlanılıb və yüzlərlə miqrant deportasiya edilib. Bu barədə Ağ Evin mətbuat katibi Karolin Levitt sosial şəbəkələrdə məlumat verib. "Qanunsuz miqrantlar arasında cinayətkarlar, o cümlədən terrorda şübhəli bilinən şəxslər saxlanılıb. Həmçinin yüzlərlə cinayətkar deportasiya edilib. Tarixdə ən böyük kütləvi deportasiya əməliyyatı tam gücü ilə davam edir", - o bildirib. Mətbuat katibi miqrantların hara deportasiya edildiyini açıqlamayıb.

### Bayden hakimiyyəti dövründə 8 milyon miqrant gəlib



Vurğulandığı kimi, günümüzün acı reallıqlarından biri sayılan qeyri-qanuni miqrasiyanın əsas marşrutu qismində ABŞ və Avropa İttifaqı hər zaman aktuallıq kəsb edib. Təsadüfi deyil ki, təkcə 2023-cü il oktyabrın 1-dən 2024-cü il mayın 28-nə kimi 57 min 200 qanunsuz miqrant ABŞ-ın cənub sərhədini keçərək Kaliforniya ştatına çatmağa cəhd edib. Bəzi miqrantlar ABŞ-da daha yaxşı həyat axtardıqlarını söyləyiblər.

2023-cü ildə isə ABŞ-ın cənub-qərb sərhədinə 2.5 milyondan çox miqrant gəlib. Onların əksəriyyəti ölkəyə daxil olmağı bacarıb. Göründüyü kimi, ABŞ-da miqrasiya göstəriciləri son illərdə xüsusilə artıb - 2021-2023-cü illər arasında illik "xalis miqrasiya" - ölkədən gedənlər ölkəyə daxil olanların sayından çıxılmaqla - orta hesabla 2,4 milyon nəfər təşkil edib. Əldə edilən məlumata görə, Cozef Baydenin hakimiyyəti dövründə ABŞ-a 8 milyondan çox insan gəlib.



### Deportasiya siyahısına Fransa başçılıq edir

Analoji problem Aİ üçün də aktuallıq kəsb edir. Son illərdə Avropa İttifaqı qeyri-qanuni miqrasiyanın artması ilə üzləşib və buna qarşı mübarizəni daha da kəskinləşdirib. Məsələn, 2022-ci ildə Aİ-yə qeyri-qanuni yollarla daxil olan miqrantların sayı 330 min nəfəri keçib. Bu artım Aİ-ni qeyri-qanuni miqrasiyaya qarşı tədbirlərini gücləndirməyə vadar edib. Aİ qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün müxtəlif strategiyalar həyata keçirib və keçirməkdə davam edir. Məsələn, Aİ Tunisə qeyri-qanuni miqrasiya ilə mübarizə üçün 900 milyon avro maliyyə yardımı ayırıb. Bu məbləğin 100 milyonu dənizdə miqrantların olduğu qayıqları aşkar edərək onları evlərinə göndərmək üçün nəzərdə tutulub. Bu da təsadüfi deyil. 2024-cü ilin yanvar-may aylarında Şimali Afrikadan İspaniya sahillərinə uzanan qeyri-qanuni miqrasiya marşrutunda 5054 nəfər həyatını itirib. 2023-cü ildə bu rəqəm 6007 olub. Bu ilin ilk beş ayında Kanar adaları yolunda 47 qayıq batıb, qəzaların heç birində sağ qalan olmayıb.

Paralel olaraq Aİ həm də deportasiya tədbirlərini gücləndirir. Son illərdə Aİ-də deportasiya göstəricilərində artım müşahidə olunur. 2024-cü ilin birinci rübündə Aİ-də qeyri-Aİ vətəndaşlarına qarşı 30 min 570 deportasiya həyata keçirilib. Bu, əvvəlki ilə nisbətən 11,4 faiz artım deməkdir. Ən çox deportasiya həyata keçirən ölkələr arasında Fransa (4 min 205), Almaniya və İsveç ön sıralardadır. Deportasiya edilən şəxslərin vətəndaşlığına gəldikdə, Əlcəzair və Mərakeş vətəndaşları ən çox deportasiya olunanlar sırasındadır. Onları Türkiyə, Suriya və Gürcüstan vətəndaşları izləyir.

### Yeni direktiv fevralda təqdim olunacaq...

Avropa özünün deportasiya siyasətini məcburən daha da "təkmilləşdirir". Ötən ilin son ayından etibarən Avropa Komissiyası (AK) Danimarka, İtaliya və Polşanın qeyri-qanuni miqrasiya probleminin həllinə kömək etmək çağırışlarına cavab olaraq miqrantların deportasiyası ilə bağlı yeni direktiv üzərində işləməyə başlayıb. "Politico" nəşrinin adı açıqlanmayan avropalı diplomatlara istinadla yaydığı bu xəbərdə bildirilir ki, AK Avropa dövlətlərinin yeni direktivə baxışını aydınlaşdırmaq üçün onlarla məsləhətləşmələr apardı. Sənəd layihəsinin bu ilin fevralında Avropa İttifaqına üzv ölkələrin daimi nümayəndəliklərinə təhvil veriləcəyi gözlənilir. Yeni qaydalar milli hakimiyyət orqanlarına "Aİ ölkələrindən birində qalmaq üçün qanuni imkanları tükənmiş" miqrantların hərəkət azadlığını məhdudlaşdırmağa, xüsusən də onları miqrasiya mərkəzlərində qeydiyyatdan keçməyə məcbur etməyə imkan verəcək. Qəzet yazır ki, Avropa İttifaqının (Aİ) bir sıra ölkələri qeyri-qanuni miqrasiya ilə mübarizə üçün daha qətiyyətli tədbirlər tələb edir. Belə ki, Aİ-nin miqrasiya və sığınacaqla bağlı imzaladığı və özündə bütün müvafiq normaların sərtləşdirilməsini ehtiva edən pakt isə yalnız iki ildən sonra qüvvəyə minəcək.

**SADİQ**

# NATO yenilənir?

## Trampın siyasi kursu Avropanı öz təhlükəsizliyinə diqqət yetirməyə məcbur edir

ABŞ-da Donald Trampın hakimiyyətə gəlişi Avropanın təlükəsizlik məsələsini yenidən gündəmə gətirib. Belə ki, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrü Ali Nümayəndəsi Kaya Kalas Aİ-nin gələcək təhlükəsizliyinin təmin olunması üçün üzv ölkələrə müdafiə xərclərini artırmağa çağırıb. "France24" televiziya kanalanın məlumatına görə, K. Kalas bildirib ki, Aİ-nin təhlükəsizliyinin möhkəmlənməsi istiqamətində ciddi addımların atılmasına ehtiyac var.

"Avropa İttifaqı (Aİ) ABŞ prezidenti Donald Trampın dediklərinə riayət olunmalı, müdafiə xərclərinin artırılması üçün tədbirlər görülməlidir", - deyə K.Kalas vurğulayıb. O bildirib ki, Aİ artıq öz təhlükəsizlik arxitekturasını formalaşdırmalı və üzv ölkələr bu məsələdə məsuliyyətli olmalıdır. "Rəsmi Vaşinqtonun bəyanatları kifayət qədər aydındır. Biz Avropanın təhlükəsizliyi üzrə məsuliyyəti üzərimizə götürməli və təhlükəsizliyimizi gücləndirmək istiqamətində təsirli tədbirlər görməliyik", deyən Aİ nümayəndəsi Ukraynaya hərbi-maliyyə dəstəyinin artırılmasının və müdafiə-təhlükəsizlik sahəsində birgə əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb.

### ABŞ-ın müdafiə çətiri altında...



K.Kalasın fikirlərindən belə görünür ki, son dövrlərə qədər NATO-nun maliyyələşməsində o qədər də ciddi rol oynamayan Aİ indi müdafiə xərclərini atırmağa həm də məcburdur. Təbii ki, rəsmi Brüssel bu qərara Donald Trampın Avropanın təhlükəsizliyinə biganə münasibət sərgiləyəcəyindən ehtiyatlanaraq gəlib. Çünki Aİ-nin ABŞ-ın dəstəyi olmadan öz təhlükəsizliyini təmin etmək iqtidarında olub-olmaması sual altındadır. Qeyd edək ki, İkinci Dünya müharibəsindən indiyə qədər ABŞ Avropanın təhlükəsizliyinin təminatında çox mühüm rol oynayıb - daha doğrusu, Avropanın təhlükəsizlik konsepsiyasının tərtib olunmasında Vaşinqtonun rolu danılmazdır. Soyuq müharibə dövründə ABŞ Qərbi Avropanın təhlükəsizliyinə təminat verib - SSRİ-nin təhlükələrindən qoruyub və bu regionda öz hərbi bazalarını yaradıb. Soyuq müharibə bitdikdən sonra qısa müddət ərzində ABŞ-ın təşəbbüsü ilə vaxtilə SSRİ-nin hərbi-təhlükəsizlik layihəsi - Varşava Müqavilə Təşkilatına daxil olan Şərqi Avropa ölkələri ABŞ-ın təşəbbüsü ilə NATO-ya daxil oldular - beləliklə, Avropanın vahid təhlükəsizlik arealı geniş vüsət aldı. Son otuz il ərzində ABŞ-ın maliyyə və hərbi-texniki dəstəyi sahəsində Avropanın təhlükəsizliyi daha da möhkəmlənib və beynəlxalq təhlükələrə qarşı mübarizədə ABŞ -la birgə əməkdaşlıq edib.





### Yeni dövrdə siyasi kurs...

İlk növbədə onu vurğulayaq ki, NATO-nun maliyyələşməsinin əsas yükü ABŞ-ın üzərindədir. Vaşinqton ÜDM-in 5 faizini, Avropa İttifaqının üzv ölkələri isə ÜDM-in 2 faizini NATO-nun maliyyələşməsinə ayırır. Bu isə Donald Tramp tərəfindən məqbul hesab olunmur. Tramp Aİ-dən bu miqdarın artırılmasını tələb edir. Halbuki, Almaniyadan başqa, heç bir Aİ ölkəsi miqdarı ÜDM-in 5 faizinə qədər artırmaq imkanlarına malik deyillər - onların büdcələri buna imkan vermir. Yalnız Almaniya bunun öhdəsindən gəlmək iqtidarında ola bilər - artıq Berlinin NATO-nun maliyyələşməsinə ayırdığı vəsait 100 milyona yaxınlaşmaq üzrədir.

Xarici mətbuatın yazdığına görə, NATO artıq özünün çox məxfi müdafiə sənayesi obyektlərinin bəzilərinin təhvil verilməsi prosesinə başlayıb. NATO şirkətləri istehsal potensialının genişləndirilməsi zərurətinə inandırmaq üçün etibarlı şəkildə yayıla bilən formada bəzi ümumi məqsədləri ifadə etmək üçün yol axtarır. Mənbələr bildiriblər ki, tədbirlər müttəfiqlər arasında razılıq tələb edəcək və yaxın bir neçə ay ərzində baş verə bilər. Həmçinin qeyd ediblər ki, ayrı bir prosesdə koalisiya bəzi məxfi standartların NATO-nun 32 üzvünün doqquzundan başqa hamısını da əhatə edən Avropa Birliyi ilə bölüşdürülməsi prosesinə də başlayıb. Məlumatın həssaslığını nəzərə alaraq, NATO onlarla əməkdaşlıq etdikcə və standartlara yenidən baxıldığında, onlar tədricən yayımlanacaq.

NATO sözçüsü bildirib ki, Alyans ən son müdafiə texnologiyalarında standartlarını, o cümlədən Avropa İttifaqı ilə bölüşmək üçün addımlar atıb. O, həmçinin sənaye ilə daha sıx əməkdaşlıq edir, sözçü bildirib. NATO bu yaxınlarda Avropa İttifaqına təsnif edilməmiş material standartlarını təhvil verdi, Aİ-nin müdafiə komissarı Andrius Kubilius bunu görünməmiş etimad nümayişi adlandırıb.

### ABŞ-ın prioritetləri fərqlidir...

Göründüyü kimi, NATO daxilində islahatlara və maliyyə yenilənməsinə ehtiyac yaranıb. ABŞ-ın yeni prezidenti Avropanın təhlükəsizlik strategiyasını NATO-nun deyil, birbaşa ABŞ-ın maraqları baxımından dəyərləndirir. Tramp hesab edir ki, ABŞ-ın hər il ərzində NATO-ya ayırdığı maliyyəni öz təhlükəsizliyinə yatırsa daha məqsədəuyğun olar.

Belə demək mümkünsə, Tramp administrasiyasının gələcək xarici siyasətində Avropa prioritet olmayacaq. Avropanın öz təhlükəsizliyini təmin etmək iqtidarında olub-olmaması məsələsinə gəlincə, bu, həm də Avropa ölkələrinin özlərinin davranışlarından asılıdır. Avropa ölkələri müdafiə xərclərini lazımi səviyyədə artırarlarsa, o cümlədən hərbi-təhlükəsizlik siyasətində ciddi dəyişikliklər həyata keçirərlərsə - bu məsələlərdə vahid mövqedən çıxış edərlərsə nailiyyət əldə etmələri mümkündür.

**Yunis Abdullayev**

# Yaratdığı dünyaya köçən yazıçı

## Nodar Dumbadzenin "Mən, nənəm, İliko və İllarion" romanı haqqında

*əvvəli ötən sayımızda*

İllarion qalxıb otağa girdi, əlində bağlama qayıtdı:

- Burada bir az quru balıq var, mçadi və "İzabella" ilə yaxşı tutur. Sənin üçün gətirmişəm.

- Bilirdim gətirəcəksən.

İliko bağlamanı alıb ayağa durdu, tələsmədən darvazaya sarı getdi.

- Dayan, səni ötürüm.

- Ötür...

Onlar həyətdən çıxıb yavaş-yavaş addımladılar. Mən uzun zaman onların ardınca baxdım. Onlar qaranlıqda yox oluncaya qədər baxdım..."

***

Zurikonun Tsira adlı göygöz, solğunbəniz, ucaboy, göyçək bir qrup yoldaşı var. Bir kursda oxuduğu tələbələr hərdən Zurikelanın başına yığışıb, Marta xalanın danlaqları, töhmətləri altında imtahana hazırlaşırlar. Otar, Nestor, Şoto tələbə şəhərciyində, Tsira isə Maçabeli küçəsində yaşayır. Onu hər dəfə evə Zurikela ötürür. Kurs oğlanlarının, demək olar, hamısı Tsiraya vurulub, qız isə heç kimi sevmir, hara getsə, ancaq Zurikoyla gedib-gəlir. Onlar bağçada saatlarla oturub ordan-burdan danışır, arabir də susurlar. Susanda əsl sevgililərə bənzəyirlər - hər halda qrup yoldaşları belə deyirlər.

Zaman keçdikcə deyilənlər doğrulmağa başlayır, Tsira Zurikelaya aşiq olur, Zuriko da bir növ borclu qalmamaq üçün qıza meyil göstərir. Bu meyil sevgiyə çevrilmək ərəfəsində olanda onda qorxu yaranır: bəs Meri?

Tələbə yoldaşlarıyla kilsəyə ekskursiyaya gedəndə Zuriko sərxoş olub Tsiranı qəflətdən oyadır:

"- Sən məni sevmirsən, Tsira... Mən indi sərxoşam, sərxoş olanda isə həmişə doğru danışıram. Sən... Mən... Sən gözəl qızsan. İstəmirəm məni sevəsən... Çünki sənin sevginə layiq deyiləm.

- Sus, Zuriko!

- Mən əclafam! Ağlıma da gəlməzdi ki, sən məni sevə bilərsən. Heç bilirsən mən necə pis adamam. Sənsə yaxşısan... Mənim...

- Lazım deyil, Zuriko, sus!

- Yox, sən bilməlisən... Mənim... mənim məhəbbətim var. Orada - kənddə... Onu mən bu dünyada hamıdan çox istəyirəm... O mənə həyatımdan da artıqdır. Sən ondan yaxşısan, min dəfə yaxşısan... Ancaq mən onu sevirəm. O mənim günəşimdir, mənim gözümün nurudur. Onun adı Meridir... Bunu sən bilməlisən...

Həyəcandan boğulurdum. Boğazım tutulmuşdu, danışmağa qoymurdu. Artıq bir kəlmə deməyə taqətim olmadığından başımı aşağı salıb susdum.

Tsira tərpənmirdi, daş heykəl kimi durmuşdu. Onun geniş açılmış mavi gözlərində nə göz yaşı, nə məzəmmət, yalnızca heyrət vardı. Birdən o sanki ayıldı, silkinib mənə yanaşdı, var gücüylə üzümə bir şillə vurdu. Mən yerimdən qımıldanmadım. Onda o, üzünü əlləriylə örtdü, başını sinəmə söykəyib zar-zar ağladı..."

Əlbəttə, yuxuya qalıb sonra da ömür boyu taleyin qapazı altında yaşamaqdansa, səmimiyyət şilləsinin zərbindən bəri başdan ayılıb kursu doğru götürmək məsləhətdir. Tsira nə qədər gözəl, ağıllı qız olsa da, kəndçi balasının arzularına, ideallarına uyğun gəlin deyil, o arzulara gedən yolda bu qız ona yoldaşlıq eləyə bilməz. Onunla evlənərsə, Zuriko şəhərdə məskunlaşmalıdır, elmi ad, karyera, vəzifə dalınca qaçıb məmur, yaxud professor həyatı yaşamalıdır. Bir sözlə, gerçək mahiyyətindən üz döndərib, qəlbini arvadının dilediyi məzmunla doldurmalıdır. Amma kənddə onun dünyası qalıb, o dünya onsuz dağılıb tarmar olar. Zurikela o dünyanı Tsiranın mavi gözlərinə qurban verə bilməz; verərsə, heç vaxt özünə yeni ömür sarayı qura bilməyəcək, çünki o sarayın kərpicləri qızıldan olsa belə bünövrəsi olmayacaq.

***

Bu biri yandan qızın qəlbini qırmaq da doğru deyil. Odur ki, Zurikela Tsiranı ucaldıb özünü yerə vurmaqla ondan qopmağa çalışır, qızı şərəfinə, namusuna, qüruruna xal salmadan özündən ayırır, onu qəflətdən ayıldıb sonrakı peşmanlıqdan duyuq salır, bu yolla vicdanını suya çəkib arzularının, ideallarının ardınca gedir: "Doğma kəndimizə, məni parlaq ulduz kimi səbirsizliklə gözləyən nənəmin, İlikonun, İllarionun, Merinin yanına qayıdacağam. Evimizə qayıdacağam, evin qabağında üzümlük salacağam, üç ildən sonra bağımın ilk məhsulunu yığacağam. Mən kənddə yaşayıb işləyəcəyəm, mənim öz evim olacaq, həyətim də, Muradam da olacaq. Mənim Merim və on iki uşağım olacaq, on bir oğlum, bir də gözəl, alagöz qızım. Teztez şəhərə gedib arvadıma, uşaqlarıma bəxşişlər, kitablar gətirəcəyəm. Nənəmə də bəxşiş gətirəcəyəm, elə bəxşişlər ki, sevincindən ağlayacaq...

İlikoyla İllariona da bəxşişlər gətirəcəyəm, elə bəxşişlər ki, məni ələ salmağa cürət eləməsinlər. Marta xalanın yanına gedəcəyəm, nənəmdən ona pay aparacağam, Marta xala da sevincindən ağlayacaq...

Sonra isə onların hamısını öz evimə köçürəcəyəm - İlikonu, İllarionu, Marta xalanı. Biz bir yerdə yaşayacağıq. Mənim çoxlu uşağım, nəvə-nəticəm olacaq. Biz çox olacağıq, lap çox, bütöv bir kənd. Sonra biz daha da artıb çoxalacağıq, bütün dünyada olacağıq. Biz heç vaxt ölməyəcəyik, daim yaşayacağıq".

Gözəl, hətta müqəddəs arzulardır, ancaq zaman bizim arzularımızın öhdəsindən gələ biləcəyimiz vaxtı gözləmir. Zaman arzular qənimi, ömürlərə balta çalan cəlladdır. Zaman ən gözəl duyğuların qatilidir.

Zurikela təhsilini bitirib doğma kəndə qayıdanda nənəsi can üstə olur. Səksən yaşa çatmış qarı nəvəsinin diplomunu alıb oxşayır, əzizləyir, içində yazılanları İllariona oxudur. Sonra vəsiyyətini eləyir, İlikonu, İllarionu Zurikoya amanatlayır: "Bu adamları itirmə, bala, onlar səninlə nəfəs alırlar. Onları həmişə çox istə, sözlərindən çıxma".

Nəvəsiylə ikilikdə qalanda nənə onu öpüb bağrına basır, ona xeyirdua verir, onu Allaha, peyğəmbərə, bütün müqəddəslərə tapşırır: "Nənəm çaxırdan bir qurtum içib stəkanı mənə qaytardı. Sonra sakitcə dedi:

- İşığı söndür, çıx...

Dediyinə əməl elədim. Bir neçə dəqiqə sonra yenə nənəmin yanına qayıdanda o artıq keçinmişdi.

Mən əyilib onun əziz, doğma üzünə uzun-uzadı baxdım. Kimsə içəri girib arxamda durdu. Kiminsə hənirini duyur və hiss edirdim ki, bu hənirti həmişə, ömrüm boyu mənim üstümdə olacaq. Geri dönmürdüm, amma bilirdim ki, o, Meridir, mənim qaranlıq otağa nur saçan Merim. Sonra qanrılıb arxaya baxdım. Baxdım ki, o nuru gözlərim görsün, onun aydınlığında İlikomu, İllarionumu, nənəmi görüm..."

Roman bu cümlələrlə başa çatır.

***

Nodar Dumbadze fani dünyada cəmi əlli altı il ömür yaşadı. Dördüncü infarktından sonra əcəl onu apardı. Xalq adını göylərə ucaldan sənətkarın borcundan çıxmaq üçün 1984-cü ilin günəşli bir sentyabr günündə nəhəng bir ordu kimi Tiflisin küçələrinə axışdı. Şahidlərin dediyinə, həm də lentlərin şahidliyinə görə, o gün yazıçını son mənzilə on minlərlə insan yola salıb.

Dumbadze ömrü boyu personajlarının arasında, onlarla nəfəs-nəfəsə, ürək-ürəyə yaşamış xoşbəxt yazıçılardan idi. Yuxuda da, ayıqlıqda da daim onlarla danışar, məsləhətləşər, ölməz ruh bağışladığı qəhrəmanlarının istisinə qızınardı. İnanıram ki, onun o dünyasının sakinləri də elə yaratdığı personajlardır, Nodar Dumbadze bu dünyadan öz əlləriylə yaratdığı həmin o dünyaya köçüb.

Hələ ayağı yerdəykən ölümün qapısı ağzında ikinci dəfə növbəyə duranda fürsətdən yararlanıb öz dünyasına baş çəkmiş, orada gördüyünü sonradan "Kukaraça" povestinin finalında qələmə almışdı: "1979-cu ilin oktyabr ayının 12-də, gecə saat on ikidə, ikinci infarktıma yarımca saat qalmış Kukaraça yuxuma girdi. Qəribədir: yuxumda Kukaraça o vaxtkı kimi iyirmi bir-iyirmi iki yaşındaydı, mənimsə yaşım artıq əllini adlamışdı. Ancaq o yenə əvvəlkitək mənə öyüd-nəsihət verir, yol göstərirdi..."



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Müasir dövrün qlobal təhdidi...



## Fərdi Məlumatların Mühafizəsi Günüdür!

*Yeganə BAYRAMOVA*

Şəxsi məlumatların toxunulmazlıq hüququ beynəlxalq hüquqda əsas insan hüquqlarından biri hesab olunur. Telekommunikasiya vasitələrindən, xüsusi ilə internetdən istifadənin artması və fərdi məlumatların mühafizəsini təhdid edən texnologiyaların sürətli inkişafı şəxsi həyatın toxunulmazlığı hüququ ilə bağlı narahatlıqların artmasına səbəb olub. Qlobal miqyasda olduğu kimi Azərbaycanda da bu sahədə qanunsuz və özbaşına müdaxilələrin mövcudluğu halları labüddür. Bu baxımdan şəxsi həyatın toxunulmazlığı hüququnun əhəmiyyətli komponenti hesab edilən fərdi məlumatların gizliliyinə dair hüquqların müdafiəsinin gücləndirilməsi strateji məqsədlərdən biridir.

**44 yaşlı Konvensiya...**

Yeri gəlmişkən, bu gün dünyada Beynəlxalq Fərdi Məlumatların Mühafizəsi Günü kimi qeyd olunur. İlk dəfə 1981-ci il yanvarın 28-də Avropa Şurası tərəfindən Strasburqda “Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işləməsi ilə əlaqədar şəxslərin qorunması haqqında” Konvensiya qəbul edilib. Fərdi Məlumatların Mühafizəsi Gününü qeyd etmək qərarı isə 2006-cı il aprelin 26-da Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən qəbul edilib. Bu tarixin qeyd edilməsində məqsəd geniş əhali kütləsinə şəxsi həyatın və fərdi xarakterli məlumatların mühafizəsinin vacibliyini xatırlatmaqdır. Azərbaycan isə sözügedən konvensiyaya 2010-cu il sentyabrın 1-dən qoşulub.

Artıq fərdi məlumatların kompyuter emalı vətəndaşlar üçün adi hala çevrilib. Bunlardan iş, inzibati rəsmiyyət, səhiyyə, alış-veriş, xidmət, səyahət sahələrini, internetdə naviqasiyanı və s. göstərmək olar. Məlumatların mühafizəsi şəxsi və ailə sirrini saxlamaq hüququnu müdafiə etmək, ifadə və vicdan azadlığı kimi digər əsas hüquqların həyata keçirilməsinin birinci dərəcəli şərtidir.



**Yeni informasiya sistemi yaradıldı!**

Bu günlərdə Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, ölkəmizdə “Milli Məkan Məlumatları” informasiya sistemi yaradılıb. Dövlət başçısının tapşırığına əsasən, İqtisadiyyat və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi birlikdə “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq, “Milli Məkan Məlumatları” informasiya sisteminin “Hökumət buludu”nda yerləşdirilməsini təmin edəcək. Eyni zamanda, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti məlumat sistemi infrastrukturunu dövlət informasiya ehtiyatları sistemlərinə inteqrasiyası ilə bağlı zəruri addımlar atacaq.

“Milli Məkan Məlumatları” informasiya sistemi rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin, habelə dövlət adından yaradılan publik hüquqi şəxslərin, eləcə də büdcə təşkilatları bələdiyyələrin fəaliyyətini vahid informasiya blokunda birləşdirəcək. Məqsəd bütün bu qurumların fəaliyyəti ilə bağlı zəruri məlumatların bir mərkəzdə toplanması və emalının təmin edilməsi, bu yolla həmin təşkilatların gördüyü işlər barədə operativ və detallı informasiyaları cəmiyyətə təqdim etməkdir. Sistemin formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından, habelə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Nəticədə bu müasir informasiya siyasətinin təşkili sayəsində dövlət təşkilatlarının fəaliyyətinin səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin əlçatanlığını təmin edəcək.

**Məlumatlar Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunacaq**

Milli Məkan Məlumatları sisteminin yaradılması, eyni zamanda, məlumatların emalı və saxlanmasında təkrarçılığın aradan qaldırılması baxımından mühüm əhəmiyyət daşımaqla, dövlət büdcəsindən bu sahəyə ayrılan pul vəsaitlərinin qənaətinə də imkan verəcək, həmçinin vəsaitlərin səmərəli idarə edilməsinə səbəb olacaq.

Milli məkan məlumatları üzrə xidmətlərin real vaxt rejimində, keyfiyyətli və operativ göstərilməsi üçün bütün zəruri rəqəmsal infrastrukturlar qurulacaq. Sistemin texniki-texnoloji infrastrukturu proqram təminatı, informasiya ehtiyatı və onun idarəetmə panelinə, telekommunikasiya qurğuları və kanallarına, ehtiyat nüsxələrə söykənəcək. Proqram təminatı və digər texniki vasitələr vətəndaş və biznes yönümlü həllər əsasında “Mobil Prioritetli Tərtibat” prinsipi ilə qurulacaq. Sistemin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları İqtisadiyyat Nazirliyinin struktur bölmələri tərəfindən formalaşdırılacaq.

Müvafiq təşkilatlar öz informasiyalarını sistemə Elektron Hökumət İnformasiya Sistemi üzərindən mübadilə etməklə həyata keçirəcək. Məlumatların təhlükəsizliyinin təmin edilməsi məqsədilə sistemin informasiya nüsxələri “Hökumət buludu”nda saxlanılacaq. Müvafiq qurumların sistemə daxil olması üçün rəqəmsal imza, o cümlədən elektron imza tələb olunur, bütün məlumatlar həmin rəqəmsal imzalarla rəsmiləşdiriləcək.

# Ermənistanın müharibə cinayətlərinin ifşası!

## İnformasiya savaşı davam edir...

*Yeganə BAYRAMOVA*

44 günlük Vətən müharibəsinin nəticələri dövlətimizin milli gücünü, xalqımızın isə mübarizə əzmini, sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Möhtəşəm qələbə qazanmaqla tarixi ədalətin və ərazi bütövlüyümüzün bərpasına nail olduq. Şübhəsiz ki, bu tarixi qələbə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun məntiqi nəticəsidir.

Təbii ki, Azərbaycan bütün cəbhələrdə - istər döyüş meydanında, istər siyasi-diplomatik müstəvidə, istərsə də informasiya cəbhəsində mütləq qalibiyyət əldə etməklə tarix yazıb. Ali Baş Komandan 21-ci əsrin müharibəsini aparmaqla mütərəqqi nümunə ortaya qoydu. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı hərbi məktəblərində Azərbaycanın təcrübəsi geniş tədqiq olunur, öyrənilir. Bu, Cənubi Qafqazın lider dövlətinin hərbi-siyasi qüdrətinin ifadəsidir.

**Ermənistan məcburdur ki...**

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən politolq Zaur Məmmədov 44 günlük müharibənin bütün hallarda yeni bir dönəmin başlanğıcı olduğunu söyləyib: “Dövlətlər üzrə hesablasaq, münasibətlər kontekstində baxsaq, daha çox regional münasibətlərə böyük təsir göstərdi və Qafqazda indiyə qədər mövcud olmuş siyasi mənzərəni dəyişdirdi. Məsələn, “bundan sonra Qafqazın gələcəyi nə cür olacaq?” sualına cavab vermək üçün müharibədən sonra Cənubi Qafqazda aktorların dəyişməsinə baxmaq lazımdır. Çünki Azərbaycan müttəfiqləri ilə birgə müharibənin qalibi olduğuna görə yeni formalaşan vizionda Azərbaycanın əsas söz sahibinə çevrilməsi təbiidir. Bununla yanaşı, Ermənistan məcburdur ki, yeni siyasi vizionun tələblərinə uyğun bir şəkildə davransın. Ən azından sülhə təhdid yarada biləcək proseslərdən kənar qalsın, qalıcı sülh müqaviləsinin imzalanmasına gətirib çıxaran prosesi uğurla icra etsin, kommunikasiyanın açılmasına ciddi dəstək olsun. Ən əsası özünün daxili hüquqi mənzərəsini dəyişdirsin. Gələcəkdə Ermənistan özünün ideoloji problemlərini qonşu dövlətlərin ərazisinə iddia ilə təşkilatlandırmasın. Şübhə yoxdur ki, bu bir kontekstdir. Bundan başqa, ermənilərin müharibədən sonra kütləvi şəkildə azərbaycanlıları qətlə yetirməsinin nümunələri ortaya çıxdı. Müharibə dönəmində sərhəddən kənar bölgələrə-Gəncə, Bərdə, Tərtərə bombaların atılması və yüzlərlə mülki insanın ölməsi, bu prosesin indi də mina cinayəti ilə davam etməsi kimi faktları bütün dünya görmüş oldu”.

**Bu, ən böyük cinayətlərdən biridir!**

Politoloqun sözlərinə görə, bütün yaşayış məntəqələri, sosial-iqtisadi infrastruktur, tarixi, dini, mədəni abidələr, dövlət obyektlərimiz tamamilə məhv edili: “Həmin ərazilərin flora və faunasına, ekologiyasına ciddi ziyan vurulub. Yəni ermənilər işğal altında saxladığı ərazilərdə, demək olar ki, bütün həyatı məhv edib. Dağıntılara baxdıqda elə təsəvvür yaranır ki, sanki bu yerlərdən sivilizasiyadan kənarda qalan vəhşi tayfalar gəlib keçiblər. Yüzlərlə yaşayış məntəqələri tamamilə yerlə-yeksan edilib. Hansı ki, bu, ən böyük cinayətlərdən biridir”.

**İşğalçı Ermənistanın zəifliyi**

Z.Məmmədov Ermənistanın sülhə daha çox ehtiyac duyduğunu və bunun onlar üçün önəmini qeyd edib: “Münasibətlərin yaxşılaşmasına gəlincə, Ermənistanın bütövlükdə kommunikasiyalara ehtiyacı var. Azərbaycan ərazisini işğal etmək Ermənistanı gücləndirmədi, əksinə daha da zəiflətdi. Bu məntiqlə baxdıqda, bu Ermənistanın Qarabağ kimi ağır bir yükdən xilas olması demək oldu. Güclü Türkiyə və Azərbaycan ilə qonşuluqda dinc yaşamaq və gələcəyini normal qurmaq şansı əldə etdi”.



**Hər bir media nümayəndəsi ayıq-sayıq olmalıdır**

Politoloq vurğulayıb ki, Vətən müharibəsini qələbə ilə başa vurmağımız informasiya müharibəsinin bitməsi demək deyil: “Hər bir media nümayəndəsi ayıq-sayıq olmalı, bu istiqamətdə işlər aparmalı, beynəlxalq əlaqələr qurulmalıdır. Xarici media, xarici KİV-lə münasibətlər yaranmalıdır. Biz heç vaxt xarici mətbuatın birtərəfli yazılarını istəmirik. Sadəcə, hadisələri olduğu kimi, obyektiv, dəqiq, qərəzsiz şəkildə yayımlamasını istəyirik. Müharibə cinayətlərinin yayımlanmasına xarici medianın özünün də marağı olmalıdır. Çünki Vətən müharibəsi günlərində nə qədər günahsız körpələr, qadınlar qətlə yetirildilər. Gəncənin, Bərdənin, Tərtərin və digər şəhərlərimizin bombalanması, raket atəşinə tutulması - bunlar Ermənistanın əslində cinayətkar bir dövlət olduğunu bütün dünyaya nümayiş etdirmişdi. Amma bununla bağlı daha geniş işlər aparmalıyıq. Xüsusən Azərbaycan jurnalistləri, mətbuatı xarici ölkələrlə əlaqələrini sıx qurmalıdır ki, dünya ictimaiyyəti ermənilərin əsl simasını tanısın”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır**

*İdman*

## Azərbaycan komandası dünya qar polosunda növbəti qələbə qazanıb



Azərbaycanın “Land of Fire” komandası yanvarın 24-26-da İsveçrənin Sankt Moritz şəhərində keçirilən qar polosu üzrə 40-cı dünya kubokunda növbəti qələbəsini qazanıb. Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə növbəti dəfə yarışa qatılan “Land of Fire” komandası finalda İsveçrənin “The Kusnacht Practice” komandası ilə qarşılaşıb və ikinci yer üzrə kuboka sahib olub.

Qeyd edək ki, komandamız Sankt Moritzdə iki dəfə - 2022-ci və 2023-cü illərdə qar polosu üzrə dünya kubokunu qazanıb. Yarışlar zamanı Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan pavilyonu da fəaliyyət göstərib.

İştirakçılar Azərbaycan pavilyonunda Heydər Əliyev Fondunun “Azərbaycan. Təbiətin sehrində” nəşrindəki foto və video materiallar, eləcə də qədim çövkən oyununa dair müxtəlif sərgilərlə tanış ola bilib.

## Ağırlıqqaldırma üzrə çempionat başa çatıb



Ağırlıqqaldırma üzrə Azərbaycan çempionatına yekun vurulub. Apasport.az xəbər verir ki, son yarış günündə kişilər arasında qalib və mükafatçıların adlarına aydınlıq gəlib. Səid Mahmudov (55 kq) toplamda 171 kq, Amin Osmanov (61 kq) 231 kq, Tehran Məmmədov (67 kq) 277 kq, İsa Rüstəmov (73 kq) 328 kq, Elxan Əliquluzadə (81 kq) 325 kq, Nurlan Rəsulov (89 kq) 330 kq, Nurlan Məmmədzadə (96 kq) 290 kq, Məmməd Əhmədzadə (102 kq) 282 kq, Azər Məmmədli (+109 kq) 330 kq nəticə göstərərək çempion adını qazanıblar.

Ölkə miqyaslı yarışın ən yaxşı kişi idmançısı İsa Rüstəmov seçilib. Ən yaxşı qadın idmançı adına isə Rahilə Hüseynova layiq görülüb. Turnirin yekunlarına əsasən ən yaxşı kişi və qadın komandaları da bəlli olub. Kişilərdə Qazax birinci, Lənkəran ikinci, Abşeron üçüncü olub. Qadınlardan isə müvafiq yerləri Qazax, Lənkəran və İsmayıllı kollektivləri tutublar. Azərbaycan çempionatında ümumilikdə 100-ə yaxın idmançı mübarizə aparıb.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı partiyanın Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədova əzizi

**VİDADİ QƏDİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

## Allah rəhmət eləsin!

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və təşkilatın kollektivi 279 nömrəli tam orta məktəbin direktoru Südabə Abdullayevaya əziz qardaşı

**ELDAR ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin.

## Allah rəhmət eləsin!

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və təşkilatın kollektivi Hicran Şərifova əziz qardaşı

**ELDAR ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin.

## Çerçesov Qazaxıstan millisinin baş məşqçisi postunu tərk edib

Rusiyalı məşqçi Stanislav Çerçesov Qazaxıstan millisinin baş məşqçisi postunu tərk edib. APA-nın Moskva bürosu xəbər verir ki, bu barədə Qazaxıstan Futbol Federasiyası məlumat yayıb. Çerçesov 2024-cü ilin iyun ayında Qazaxıstan millisinin baş məşqçisi təyin olunub. Müqavilənin qarşılıqlı razılaşma əsasında ləğv edildiyi bildirilib.

Xatırladaq ki, ötən ilin o ktyabr ayında Çerçesov qazax dili ilə bağlı ksenofobik zarafata görə cərimələnib. Oktyabrın 13-də keçirilən oyundan sonra jurnalist məşqçiyə qazax dilində sual verib və Çerçesov “Sən indi fransızca danışırsan?” deyə cavab verib. Cərimə 738 400 tenge (təxminən 147 min rubl) təşkil edib.

Çerçesov çalışdırdığı dövrdə Qazaxıstan millisi Millətlər Liqasında 6 oyunda 5 məğlubiyyət alıb və 15 qol buraxaraq bir qol belə vurmayıb.



## Güləşçimiz fəxri kürsüyə yüksəlib

Azərbaycanın daha bir güləşçisi Bolqarıstanın Varna şəhərində keçirilən “Dan Kolov - Nikola Petrov” turnirində fəxri kürsüyə qalxıb. Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Murad Haqverdiyev (65 kiloqram) ilk mərhələdə bolqarıstanlı Nikola Stefanova tam üstünlüklə qalib gəlib - 10:0. O, təşkilatçı ölkənin digər təmsilçisi Erdal Qalip üzərində də inamlı qələbə qazanıb - 5:1. Haqverdiyev yarımfinalda ukraynalı Erik Aruşanyandan güclü olub - 5:3. Murad finalda daha bir Bolqarıstan güləşçisi ilə üz-üzə gəlib. Səlim Naimlə görüş gərgin mübarizə şəraitində keçib. Son saniyələrdə hesab 2:2 olarkən Haqverdiyevin icra etdiyi fənd əvvəlcə 2 xalla qiymətləndirilib. Ancaq rəqib etiraz hüququndan istifadə edib və “çelenc”ə baxıldıqdan sonra qərar dəyişdirilib və yekun hesab 2:2 olub. Rəqibinə sonuncu xal prinsipinə əsasən məğlub olan Murad ənənəvi yarışda gümüş medalı boynundan asıb.



Beləliklə, Azərbaycanın sərbəst güləşçiləri yarışı 2 gümüş və 1 bürünc medalla başa vurub. Xatırladaq ki, daha öncə Sadiq Mustafazadə (92 kiloqram) gümüş, Ceyhun Allahverdiyev (61 kiloqram) isə bürünc mükafata yiyələnib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 3929**
**Sifariş: 207**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova